DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 09 (359) / SENTYABR 2021-Cİ İL




Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq – öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq mənfur düşmən, - baxmayaraq ki, onların əlində əlverişli mövqelər var idi, ərazinin relyefi onlara böyük üstünlük təşkil edirdi, baxmayaraq ki, 30 il ərzində 5-6 xətdən ibarət müdafiə istehkamları qurulmuşdu, - geri getməyə məcbur olmuşdur. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmamışdır. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi.

…Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!

**Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev**
Anım Günü ilə əlaqədar xalqa müraciətindən
27 sentyabr 2021-ci il



VƏTƏN MÜHARİBƏSİNDƏ ƏN BÖYÜK ÜSTÜNLÜYÜMÜZ PREZİDENTİMİZİN ƏTRAFINDA SIX BİRLƏŞƏN XALQIMIZIN MİLLİ-MƏNƏVİ HƏMRƏYLİYİ İDİ

Səh. 5



DÖVLƏT KOMİTƏSİNDƏ ANIM TƏDBİRİ KEÇİRİLİB

Səh. 5



SƏYYAD ARAN: 35 İL SONRA YENİDƏN ŞUŞALI GÜNLƏRİM

Səh. 8



DÖVLƏT KOMİTƏSİNİN ABŞ-IN BEYNƏLXALQ DİNİ AZADLIQ ÜZRƏ KOMİSSİYASININ ARAYIŞININ AZƏRBAYCANLA BAĞLI HİSSƏSİNƏ DAİR BƏYANATI

Səh. 9

# PREZİDENT İLHAM ƏLİYEV: ERMƏNİSTAN AZƏRBAYCANA QARŞI İSTƏNİLƏN ƏRAZİ İDDİASINI GERİ GÖTÜRMƏLİ VƏ ÖZÜNÜ YAXŞI APARMALIDIR



*Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "France-24" televiziya kanalına müsahibə verib.*

**- Salam, "France-24" kanalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə eksklüziv müsahibəyə xoş gəlmisiniz. O, bizə Bakıdan qoşulur. Cənab Prezident, "France-24" kanalında bizim qonağımız olduğunuz üçün çox sağ olun.**

- Fransız auditoriyası ilə danışmaq üçün mənə bu fürsəti verdiyinizə görə təşəkkür edirəm.

**- Ölkənizin 44 gün ərzində qalib gəldiyi Azərbaycan və Ermənistan arasında olan müharibənin başlanmasından düz bir il ötür. Keçən həftə BMT-də müharibə bitəndən bəri ilk dəfə hər iki ölkənin - Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri görüşdü. Bu, hər iki tərəf arasında dialoqun yenidən başlaması və sülhə ümidin olacağı deməkdirmi?**

- Ümid etmək istərdim ki, bu, belədir. Çünki Azərbaycan artıq neçə dəfə açıq şəkildə Ermənistanla dialoqa başlamağa hazır olduğunu bildirib. Söhbət təkcə dialoqun başlanılmasından getmir, eyni zamanda, Azərbaycan və Ermənistan arasında gələcək sülh razılaşmasının üzərində aparılacaq işdən də gedir. Müharibə bitib, münaqişə öz həllini tapıb. Biz regionu daha da proqnozlaşdırıla bilən, sabit və təhlükəsiz regiona çevirmək üçün yeni fəaliyyətə başlamalıyıq. Hər iki ölkənin xarici işlər nazirlərinin görüşü bu səylərin yaxşı göstəricisidir. Ümid edirəm ki, bu, təkcə bir görüş yox, yeni bir prosesin başlanğıcı, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin və Cənubi Qafqaz regionunda geniş əməkdaşlığa yeni bir miqyas verəcək proses olacaq.

**- Düzdür, dialoqa yenidən başlamağa cəhd etmək və sülhə doğru irəliləmək üçün Ermənistan rəhbərliyi - Ermənistanın baş naziri ilə əlaqə yaratmısınızmı?**

- Keçən ilin noyabr ayında müharibə bitəndən bəri bizim bir-birimizi görmək üçün yalnız bir imkanımız olub. Bu, yanvar ayında Rusiya Prezidenti Vladimir Putin tərəfindən Moskvada təşkil olunan üçtərəfli görüş zamanı olub. Görüşün məqsədi müharibədən sonra hadisələrin gedişatını planlaşdırmaq idi. Bizim bir-birimizi görmək üçün başqa imkanımız olmayıb. Yəqin ki, bu pandemiya ilə və ya başqa səbəblərlə əlaqədar olub. Lakin Azərbaycan heç vaxt, hətta müharibə zamanı, hətta işğal zamanı belə istənilən yüksək səviyyəli təmaslara etirazını bildirməyib. Əksinə, hesab edirik ki, bu təmaslar hər iki tərəfdə ola bilən sualları cavablandıra bilər və regionun inkişafı üçün yeni başlanğıc nöqtəsi ola bilər. Bizim mövqeyimiz çox aydındır. Biz münaqişənin həll olunduğunu hesab edirik, keçmişə qayıdış olmamalıdır, Ermənistanda revanşizm əlamətləri olmamalıdır. Biz gələcək haqqında, sülh haqqında və regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında danışmalıyıq.

**- Siz bunları söyləmək üçün baş nazir Paşinyana zəng etməyə hazırsınızmı?**

- Ola bilsin ki, sizin dediyiniz kimi yox. Adətən iki ölkə rəhbəri arasında təmaslar ATƏT-in Minsk qrupu çərçivəsində təşkil olunurdu. Onlar gündəliyi təklif edirdi, onlar görüşləri təşkil edirdi. Mənim prezidentlik təcrübəmdə heç vaxt Ermənistanın hər hansı bir rəhbəri ilə telefon danışığım olmayıb. Yəqin ki, bu yanaşma bunu etmək üçün doğru yol deyil. Lakin Minsk qrupunun həmsədrləri belə bir görüş təklifi ilə çıxış etsələr, əlbəttə, biz buna qarşı çıxmarıq.

**- Müharibənin ildönümü ilə əlaqədar müraciətinizdə Siz dediniz ki, - mən Sizdən sitat gətirirəm: "Əgər biz erməni faşizminin bir daha baş qaldırdığını görsək, yeni təhlükə görsək, heç bir tərəddüd etmədən erməni faşizmini yenidən əzəcəyik". Bu, sülh mesajı kimi səslənmir, elə deyilmi?**

- Bilirsiniz, bu, Ermənistandakı vəziyyəti əks etdirən bir fikirdir. Regionda sülhün bərqərar olunması ilə bağlı bizim mövqeyimizə gəldikdə, mən bir neçə dəfə açıq bəyanatlar vermişəm və yəqin siz internetə baxsanız onları tapa bilərsiniz. Bunlar xüsusilə sərhədlərin delimitasiyası və demarkasiyası üzərində işə başlamaqdan, Ermənistanla sülh sazişinin üzərində aparılacaq hərtərəfli danışıqlara hazırlaşmağa başlamaqdan ibarətdir. Bütün bunlar xoşməramlı jestlərdir. Yeri gəlmişkən, bunların heç birinə Ermənistan rəhbərliyi tərəfindən adekvat cavab verilməyib. Onlar ya bu təkliflərə məhəl qoymur, ya da ki, hazır olmadıqlarını deyirlər. Lakin mənim bəyanatım öz mənşəyini Ermənistanda müşahidə etdiyimiz tendensiyadan götürür. Bu siyasi istablişmentin bəzi dairələrində revanşizm tendensiyasıdır. Söhbət təkcə müxalifətdən getmir, iqtidardan da gedir. İntiqam almaq üçün ictimai bəyanatlardan və daha önəmlisi praktiki addımlardan, Ermənistanı militarizasiya etmək cəhdlərindən, bir məqsəd xatirinə edilən, müharibəyə yenidən başlamaq üçün yeni müasir avadanlıqlara çıxış əldə etmək cəhdlərindən gedir. Buna görə, mənim sözlərim kobud görünə bilər, lakin bu sözlərin əsas məqsədi Ermənistan rəhbərliyi və Ermənistan siyasi istablişmentini istənilən revanşizm əlamətlərinə, xalqımıza, dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhlükəyə cavab veriləcəyi haqqında xəbərdar etməkdən ibarət idi. Onlar bizim necə cavab verdiyimizi bilir və İkinci Qarabağ müharibəsi onların bizim qarşımızda heç bir şansının olmadığını göstərdi. Biz müharibəyə başlamaq istəmirik. Bu, bizə lazım deyil. Danışıqlar aparılan illər ərzində bu, bizə heç vaxt lazım olmayıb. Lakin indi hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün onlara xəbərdarlıq etmək vaxtıdır.

**- Burada bir məsələ var. Siz hesab edirsinizmi ki, bütün əraziləri geri qaytarmısınız? Əvvəllər Sizin bəyanatlarınız olub ki, Ermənistanın paytaxtı İrəvan qədim Azərbaycan torpağıdır. Bəli, Siz ötən il torpaqları geri qaytardınız, ancaq yenə də müəyyən suallar var. Ermənistanın özünün hesab etdiyi ərazilərlə bağlı hər hansı iddianız varmı?**

- Xeyr. Mənim bəyanatlarımda siz heç vaxt ərazi iddialarının əlamətlərini tapa bilməzsiniz. Mənim nəzərdə tutduğum tarixi həqiqətdir. Bu, bir tarixi faktdır ki, 1920-ci ildə sovet hakimiyyəti Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzuru qopararaq onun Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edib və bu qərar icra olunub. Bu hadisə 1920-ci ildə baş verib - 101 il bundan əvvəl. Tarixi torpaqlarımız haqqında danışarkən mən ərazi iddialarından bəhs etmirdim. Siz mənim heç bir çıxışımda buna rast gələ bilməzsiniz. Bununla yanaşı, hər bir ölkə kimi, biz də tariximizi bilməli, gənc nəsil qədim tariximizi bilməli, keçmişdə hansı ərazilərdə yaşadığımızdan xəbərdar olmalı və oralara necə qayıtmalı olduğunu bilməlidir. Əminəm ki, biz oralara qayıdacağıq. Mən artıq bunu demişdim ki, biz ora tanklarla deyil, piyada, avtomaşın və təyyarələrlə gedəcəyik. Vəziyyət normallaşandan sonra sülh müqaviləsinə nail olunacaqsa, niyə də biz geri qayıtmayaq? Bu, bizim legitim hüququmuzdur. Lakin sualınıza cavab verərkən tamaşaçılarınızın diqqətini bir məsələyə cəlb etmək istəyirəm ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var. Onlar hələ də iddia edirlər ki, "Dağlıq Qarabağ" bizə məxsus deyil. Onlar hələ də iddia edirlər ki, o, ya Ermənistana məxsusdur, ya da ki, "müstəqil" bir qurumdur. Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı vahid yoxdur. Belə bir qurum mövcud deyil. Beləliklə, Ermənistan, ilk növbədə, Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır. Biz isə adekvat münasibət göstərəcəyik.

**- Siz Qarabağa muxtariyyət verməyə hazırsınız? Minsk qrupunun üzvü ABŞ hələ də bəyan edir ki, Qarabağ məsələsi öz həllini tapmayıb. Siz bəyan edirsiniz ki, məsələ həllini tapıb və Qarabağ sizə məxsusdur. Lakin illər ərzində bu münaqişədə vasitəçilik edən bir sıra ölkələr iddia edir ki, məsələ həll edilməyib.**

- Mənim məsələnin həll edilmədiyini deyən həmin ölkələrə tövsiyəm odur ki, öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər. Niyə onlar hesab edirlər ki, hər hansı hüquqi, siyasi və tarixi əsaslar olmadan Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmalıdır? Mən deyəndə ki, münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir. Münaqişənin həll olunmaması ilə bağlı istənilən bəyanat yersiz olmaqla yanaşı, təhlükəlidir. Münaqişə həll edilməyib deyənlər göstərsinlər ki, o, necə həll olunmalıdır. "Dağlıq Qarabağ" dedikdə onlar nəyi nəzərdə tuturlar? Hansı sərhədlər çərçivəsində, hansı ərazidə, hansı formada? Həmin sualları cavablandırmaq üçün eyham belə yoxdur. Bu səbəbdən münaqişənin həll edilmədiyini söyləmək qeyri-səmərəli və təhlükəlidir. Bu, o deməkdir ki, onu həll etmək üçün düşmənçilik xarakterli digər hərəkətlərə ehtiyac var. Sizin muxtariyyətlə bağlı sualınıza gəldikdə, Minsk qrupunun həmsədrləri 28 il sürən mənasız danışıqlarda Azərbaycanın mövqeyindən çox yaxşı xəbərdardırlar.

davamı səh. 3

# PREZİDENT İLHAM ƏLİYEV: ERMƏNİSTAN AZƏRBAYCANA QARŞI İSTƏNİLƏN ƏRAZİ İDDİASINI GERİ GÖTÜRMƏLİ VƏ ÖZÜNÜ YAXŞI APARMALIDIR

əvvəli səh. 2

Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman "yox" deyirdilər – yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından, onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır.

**- Yəni, onlara muxtariyyət verilməyəcək. Bu, artıq müzakirə mövzusu deyil?**

- Tamamilə doğrudur, bu, artıq müzakirə mövzusu deyil.

**- Sualım Fransanın mövqeyi ilə bağlıdır. Fransa Sizin bəzi hərəkətlərinizi tənqid etdi və bu yaxınlarda Ermənistanla sərhəddən geri çəkilməyə çağırdı. Siz Fransanı dürüst vasitəçi hesab edirsiniz?**

- Bilirsiniz, müstəqilliyimizin bütün illərində biz ikitərəfli əlaqələrimizdə Fransa ilə bu mövzuda və bir çox digər məsələlərdə fəal çalışırdıq. Fransa hər zaman Azərbaycanda dost ölkə hesab olunub. Biz bir çox iqtisadiyyat, ticarət və infrastruktur layihələrini həyata keçirmişik. Münasibətlər uğurla inkişaf edirdi və biz ümid edirik ki, Minsk qrupunun həmsədri və dürüst vasitəçi kimi Fransa bu vəzifəyə sadiq olacaq. Fransa Minsk qrupunun həmsədri olmasaydı, əlbəttə, onun istənilən ölkə ilə münasibət qurması öz işi olardı. Bizim Fransa ilə Ermənistanın tarixi əlaqələrindən, Fransada fəal erməni icmasının olmasından və onların qərar qəbul edən şəxslərə mümkün təsirindən xəbərimiz var. Ancaq, səmimi desəm, müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı. Fransa tərəf seçdi - Ermənistanın tərəfini. Özünün hərəkət və bəyanatlarında Azərbaycanı açıq şəkildə ittiham etdi və qərəzli yanaşma nümayiş etdirdi. Təbii ki, bu məsələ narahatlıq doğurdu. Biz bu narahatlığı ifadə etdik, çünki bir daha qeyd etmək istəyirəm ki, istənilən ölkənin seçimləri, dostları və qeyri-dostları ola bilər. Bu, onların öz işidir və burada biz heç nə deyə bilmərik. Lakin bir ölkə vasitəçi olması ilə bağlı ATƏT-in mandatına sahibdirsə, bu halda ölkə bitərəf olmalıdır. Müharibə zamanı və ondan dərhal sonra baş verənlərə qayıtmaq istəmirəm, biz Parisdən gələcək münasibətlərimizlə bağlı müsbət siqnallar aldıq və onlara müsbət cavab verdik. Müxtəlif səviyyələrdə, o cümlədən bu yaxınlarda iki ölkənin xarici işlər nazirləri arasında təmaslar olmuşdur. Azərbaycan hər zaman əməkdaşlığa açıq olub. Fransa dünyada aparıcı dövlətlərdən biridir və biz normal münasibətlərin olmasını istəyirik. Hesab edirəm ki, müharibənin başlanmasından bir ilin keçməsinə baxmayaraq, regionda nəyə nail olmaq istədiyimizə gəldikdə, çox realist yanaşmanın tətbiq edilməsi vaxtı yetişib. Əminəm ki, Fransa regionda sülhü, sabitliyi, təhlükəsizliyi arzulayır. Biz də bunu istəyirik. Ümid olunur ki, Ermənistan da istəyir. Biz bunun üzərində işləməliyik, buna diqqətlə yanaşmalıyıq və bir il əvvəl baş verənlərə qayıtmalı deyilik. Bizə gəldikdə, bu çox xoşagəlməz hadisələrdən sui-istifadə etməyəcəyik. Biz səhifəni çevirmək istəyirik.

**- Müsahibənin sonuna yaxınlaşırıq. Cənab Prezident, Sizə əlavə iki sualım da var. Hərbi əsirlərə gəldikdə, "Human Rights Watch" Azərbaycanı onları saxlamaqda, onlara işgəncə verilməsində ittiham edir. Buna cavabınız necə olardı? Xoşməramlı jest kimi, Ermənistanla onları mübadilə etməyə hazırsınızmı?**

- Biz, əlbəttə, bu ittihamları rədd edirik. Müharibə zamanı əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb. Ermənistan hökuməti bunu təsdiq edə bilər. Biz onları, hətta onlar bizim hərbi əsirləri qaytarmazdan əvvəl qaytardıq. QHT-lərin istinad etdiyi həmin şəxslərə gəldikdə, onlar müharibə başa çatdıqdan və noyabr Bəyannaməsi imzalandıqdan iki həftə sonra Ermənistanın hərbi komandirləri tərəfindən bizim mövqelərə doğru göndərilmişdilər və beləliklə, dörd azərbaycanlı hərbçini qətlə yetirərək cinayət törətmişlər. Onlar zərərsizləşdirildi və həbs olundular. Cinayətdə iştirakı olmayanların çoxu artıq qaytarılıb. Cinayət törədənlərə isə məhkəmələr tərəfindən cəza müəyyən edilib.

**- Ermənistan isə iddia edir ki, siz hələ də hərbi əsirləri saxlayırsınız və həqiqəti söyləmirsiniz.**

- Xeyr. Həmin saxlanılmış şəxslər siniflşdirməyə, bütün beynəlxalq konvensiyalara uyğun olaraq, hərbi əsir hesab edilə bilməz. Hərbi əsirlər müharibə zamanı əsirliyə düşmüş insanlar hesab edilir. Noyabrın 10-da müharibə dayandırıldı. Dekabrın əvvəlində biz azad etdiyimiz ərazidə erməni təxribat dəstəsinin 62 üzvünü aşkar etdik. Onlar əraziyə noyabrın 26-da göndərilmişdi. Yəni, müharibə bitdikdən 16 gün sonra. Onlar hərbi əsir hesab edilə bilməz və biz onların çoxunu xoşməramlı jest kimi artıq qaytarmışıq. Lakin burada qalıb cəzasını çəkən şəxslər cinayət törədib və onlar ədalət mühakiməsi qarşısında cavab verməli idilər və bu, belə də oldu.

**- Cənab Prezident, sonuncu sual: "Sərhədsiz reportyorlar" təşkilatı Sizə müraciət edərək, Azərbaycan blogeri Məhəmməd Mirzəliyə qarşı hədələrə və zorakılığa son qoymağa çağırıb. O, Fransada qaçqın kimi yaşayır. Mart ayında burada ona şiddətli hücum edilib, bıçaq xəsarəti alıb. Sualım belədir: "Sərhədsiz reportyorlar" təşkilatının rəyinə görə, Siz həmin şəxsləri susdurmaq məqsədilə xaricə adamlar göndərirsiniz.**

- Əvvəlcə deyim ki, biz "Sərhədsiz reportyorlar" kimi QHT təşkilatı ilə uzun illər əvvəl hər hansı ünsiyyəti dayandırmışıq. Bu, bəlkə də 15 il əvvəl baş verib və bu, onların Azərbaycanla bağlı çox qərəzli və ədalətsiz mövqeyi ilə əlaqədardır. Bu səbəbdən onların hesabatı mənim üçün və Azərbaycan xalqı üçün heç bir əhəmiyyət daşımır. Avropada, o cümlədən Fransada yüzlərlə insan yaşayır və Azərbaycanda gördüyümüz işlər onların xoşlarına gəlmir. Onlar Fransada, başqa ölkələrdə yaşayırlar və heç kəs onlara toxunmur. Əgər sizin ölkədə yaşayan insanla bağlı hadisə baş verirsə, bunun araşdırılması məhz sizin ölkənizin hüquq-mühafizə orqanlarının işidir. Azərbaycanı bu məsələdə günahlandırmaq QHT-nin işi deyil. Sizin istintaqçıların bıçaqla xəsarət yetirmə halı ilə bağlı kifayət qədər sübutları varmi?

**- Siz həmin şəxslə hər hansı əlaqənin olduğunu rədd edirsiniz?**

- Tamamilə belədir. Yüz faiz rədd edirəm. Hər hansı sübut, araşdırma olmadan və kimin hansı cinayəti törətdiyini müəyyən etmədən bütün ittihamlar tamamilə əsassızdır və qərəzlidir.

**- Prezident İlham Əliyev, "France-24" kanalına müsahibə verdiyinizə və kanalımızı seyr etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.**

- Dəvətinizə görə minnətdaram. Sağ olun.

# PREZİDENT İLHAM ƏLİYEV: "AZƏRBAYCAN DÜNYADA TOLERANTLIĞIN, MÜXTƏLİF DİNİ VƏ ETNİK QRUPLARIN NÜMAYƏNDƏLƏRİNİN DİNC BİRGƏYAŞAYIŞININ NÜMUNƏSİ SAYILIR"



"Biz Azərbaycanda multikulturalizmi bir həyat tərzi olaraq qoruyur və dəstəkləyirik. Azərbaycan dünyada tolerantlığın, müxtəlif dini və etnik qrupların nümayəndələrinin dinc birgəyaşayışının nümunəsi sayılır".

Bu fikirləri BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrində videoformatda çıxışı zamanı Prezident İlham Əliyev bildirib. Dövlət başçısı qeyd edib ki, 2008-ci ildə Azərbaycanın təşəbbüsü ilə başlanılmış və müsəlman dünyası ilə Avropa arasında dialoq və əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyan "Bakı Prosesi" BMT tərəfindən güclü şəkildə dəstəklənir. "BMT Baş Assambleyasının qətnamələrində Azərbaycanda müntəzəm olaraq təşkil olunan Mədəniyyətlərarası Dialoq üzrə Ümumdünya Forumu "mədəniyyətlərarası dialoqun təşviqi üçün mühüm qlobal platforma" olaraq tanınır. Ötən ilin sentyabrında BMT Baş Assambleyasındakı çıxışım zamanı mən sizin diqqətinizi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsinə və Ermənistan hökumətinin təcavüzkar bəyanatlarına və hərəkətlərinə yönəltdim. Bu gün qürur hissi ilə deyirəm ki, Ermənistan döyüş meydanında məğlub edildi və Azərbaycan işğala son qoydu"

Prezident İlham Əliyev onu da qeyd edib ki, təqribən 30 il ərzində Ermənistan ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayırdı. İşğal müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. "Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək, yüzlərlə dinc insanı, o cümlədən 106 qadını və 63 uşağı qətlə yetirmişdir. 1275 azərbaycanlı əsir götürülmüşdür, onların 150-si hələ də itkin hesab olunur. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin Ermənistan bu və BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bənzər qərarlara məhəl qoymamışdır"-, deyə dövlət başçısı əlavə edib.

# MEHRİBAN ƏLİYEVA: AZƏRBAYCAN DÖVLƏTİNİN TARİXİNƏ HƏKK OLUNMUŞ İGİD OĞULLAR BÖYÜDÜB TƏRBİYƏ ETMİŞ VALİDEYNLƏRƏ TƏŞƏKKÜRÜMÜ BİLDİRİRƏM



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 27 sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib.

Paylaşımda deyilir:

"Əziz bacılar və qardaşlar! Bu gün biz Vətən müharibəsi şəhidlərinin xatirəsini yad edirik. Şanlı Zəfər naminə həyatlarını qurban vermiş qəhrəmanlarımızı anırıq. Onlar əsl vətənpərvərlik və Vətənə sədaqət nümunəsi nümayiş etdirərək öz qorxmazlığı, cəsarəti, möhkəm iradəsi və ruh yüksəkliyi sayəsində işğalçını darmadağın edib, ölkəmizin ərazi bütövlüyünü bərpa ediblər. Adları əbədi olaraq Azərbaycan dövlətinin tarixinə həkk olunmuş bu cür igid oğullar böyüdüb tərbiyə etmiş valideynlərə təşəkkürümü bildirir, Uca Tanrıdan onlara səbir diləyirəm. Müharibə günlərində həlak olmuş günahsız vətəndaşlarımızın xatirəsini yad edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Uca Tanrı hər zaman xalqımızı qorusun!".

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ XRİSTİAN LİDERLƏR KONQRESİNİN PREZİDENTİ İLƏ GÖRÜŞÜB



Sentyabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Xristian Liderlər Konqresinin prezidenti, ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının keçmiş müvəkkili Conni Murla görüşüb.

Qonağı salamlayan Dövlət Komitəsinin sədri ölkəmizdə multikultural, tolerant ənənələrə verilən dəyər və dinlərarası harmoniya haqqında ətraflı məlumat verib. Bildirib ki, ölkədəki dini durumun sabitliyi, tolerantlığın səviyyəsinin yüksək olması, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyin olmaması qeyri-islam dini qurumların fəaliyyətinə əlverişli şərait yaradır. Azərbaycanda 37 qeyri-islam dini qurumun dövlət qeydiyyatına alındığını diqqətə çatdıran Komitə rəsmisi İslam təmayüllü dini icmalarla yanaşı, onlara da dövlət büdcəsindən maddi yardım göstərilməsinin artıq ənənəyə çevrildiyini qeyd edib.

Söhbət zamanı ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının bu yaxınlarda yaydığı arayışa da toxunan Mübariz Qurbanlı sənəddə heç bir fakta söykənməyən qərəzli mövqe sərgiləndiyini diqqətə çatdırıb. Vurğulayıb ki, 44 günlük Vətən müharibəsi zamanı Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuz şanlı qələbə qazanaraq 30 il davam edən işğala son qoydu, ərazi bütövlüyünü bərpa etdi. İşğal dövründə Ermənistanın torpaqlarımızda etnik təmizləmə və soyqırımı həyata keçirməsi, Azərbaycan toponimlərini erməniləşdirməsi, yüzlərlə tarixi-mədəni abidələrlə yanaşı, mövcud olan 60-dan çox məscidi, 200-ə yaxın ziyarətgahı dağıtması və yarımuçuq məscidlərdə heyvan saxlamaqla dini dəyərləri təhqir etməsi, eləcə də Qafqaz Albaniyası mədəni irsinə və pravoslav kilsəsinə aid olan xristian məbədlərində saxtalaşdırma işləri görərək qriqoryanlaşdırması və ya dağıtması barədə faktların sözügedən arayışda yer almaması ilə yanaşı, əsassız iddiaların irəli sürülməsi təəssüf doğurur. DQİDK sədri hesabatların daha obyektiv və dürüst tərtib edilməsi, real vəziyyətlə tanış olmaları üçün ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının üzvlərinin ölkəmizə səfər etmələrinin zəruriliyinə də toxunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən Xristian Liderlər Konqresinin prezidenti Conni Mur ölkəmizə səfəri çərçivəsində Cəbrayılda olarkən erməni vandalizminin acı nəticələrini, dağıntıları öz gözləri ilə gördüyünü və bu mənzərədən dəhşətə gəldiyini bildirib. O, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərini sevinclə qarşıladığını deyib. Ölkəmizə səfərləri zamanı daim xalqımızın yüksək tolerant və multikultural mənəviyyatının, cəmiyyətdə müxtəlif dinlərin nümayəndələri arasında ümumi dostluq mühitinin canlı şahidi olduğunu diqqətə çatdıran qonaq Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının üzvləri ilə görüşdüyünü bildirərək dini konfensiyyalara göstərilən diqqət və qayğıya görə məmnunluğunu ifadə edib. C.Mur ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının müvəkkili olarkən ölkəmizdə şahid olduğu reallıqların, faktların hesabatlarda yer almasına daim səy göstərdiyini, ölkəmizdə dini azadlıqların pozulması barədə rəy ilə razı olmayaraq öz qeyd-şərhini rəsmi formada dərc etdirdiyini vurğulayıb.

Görüşün sonunda qonağa ölkəmizdəki dini tolerantlıq mühitini özündə əks etdirən xatirə hədiyyəsi təqdim edilib.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN HESABAT İCLASI KEÇİRİLİB

Sentyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın hesabat iclası keçirilib.

Hesabatdan öncə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxış edərək dövlət başçısı tərəfindən Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin genişləndirilməsindən, qeyri-hökumət təşkilatlarının dövlət idarəçiliyi və qanun yaradıcılığı prosesinin iştirakçısına çevrilməsindən danışıb. Dövlət Komitəsinin qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdıran G.İsmayılov İctimai Şuranın bu sahədə gördüyü işlərin əhəmiyyətindən söhbət açıb, İctimai Şura üzvlərinə üzvlük vəsiqələrini təqdim edib.

Daha sonra İctimai Şuranın Hesabat iclası keçirilib. Şura sədri Sevinc Alızadə 5 aylıq Hesabatı təqdim edərək, görülən işlərdən və təşkil edilən görüşlərdən danışıb. İclasda həmçinin, İctimai Şuranın cari məsələləri müzakirə edilib, görüləcək işlər ilə bağlı rəy və təkliflər səsləndirilib.



## VƏTƏN MÜHARİBƏSİNDƏ ƏN BÖYÜK ÜSTÜNLÜYÜMÜZ PREZİDENTİMİZİN ƏTRAFINDA SIX BİRLƏŞƏN XALQIMIZIN MİLLİ-MƏNƏVİ HƏMRƏYLİYİ İDİ



Vətən müharibəsində Azərbaycanla Ermənistan arasında çox böyük fərq var idi. Bu müharibədəki Qələbəmiz ölkəmizin siyasi, iqtisadi, hərbi və mənəvi üstünlüyünün təsdiqi idi.

Bunu 27 sentyabr - Anım Günü ilə əlaqədar "Biz birlikdə güclüyük" mövzusunda keçirilən tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ifadə edib.

M.Qurbanlı bildirib ki, Vətən müharibəsindəki ən böyük üstünlüyümüz Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşən xalqımızın milli-mənəvi həmrəyliyi idi.

Döyüşlərdə hətta bizim hərbçilərlə düşmən əsgərlərinin mənəvi-psixoloji vəziyyəti arasında böyük fərq var idi. Çünki bizim əsgərlərimiz öz Vətəni, torpağı uğrunda, düşmən isə işğalçı kimi başqasının ərazisində vuruşurdu. Bu baxımdan əsgərlərimiz mənəvi-psixoloji cəhətdən düşməndən birbaş üstün idi.

# DÖVLƏT KOMİTƏSİNDƏ ANIM TƏDBİRİ KEÇİRİLİB



Sentyabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Anım Günü ilə bağlı tədbir keçirilib.

Şəhidlərin ruhunun bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan mərasimi giriş nitqi ilə açan DQİDK sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin Anım Günü ilə bağlı xalqa müraciətinə, eyni zamanda Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq dövlət başçısı və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə həyata keçirilən yürüşə diqqət çəkib. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhid ailələrinə, qazilərimizə göstərilən qayğının hər birimiz üçün örnək və nümunə olduğunu söyləyən Komitə sədri müstəqil Azərbaycan dövləti və xalqımız var olduqca şəhidlərimizin də qəlblərdə əbədi yaşayacağını qeyd edib. Komitənin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə şəhidlərin doğum günlərində onların ailələrinin ziyarət edildiyini, "Şəhid yadigarları" və bu kimi digər aksiyaların mütəmadi olaraq həyata keçirildiyini bildirib.

Komitə sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində rəşadətli Ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında elə bir zəfər salnaməsi yazdı ki, bu barədə xarici ölkələrin qərargahlarında, hərb müəssisələrində tədqiqatlar aparılır. Əldə olunan bu qələbənin tarixi, iqtisadi, siyasi-diplomatik, mənəvi-psixoloji tərəflərini qeyd edən Komitə sədri tarixi zəfərimizdə milli-mənəvi dəyərlərin rolunu da xüsusi vurğulayıb.

Anım Günündə Azərbaycan və ölkəmizin hüdudlarından kənarda Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş bir sıra tədbirlərin keçirildiyini xatırladan Mübariz Qurbanlı məscid, kilsə və sinaqoqlarda ərazi bütövlüyümüz uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunduğunu, dini ayinlər icra olunduğunu bildirib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında bildirib ki, bu gün Vətənimiz uğrunda canından keçən, düşmənin üzərinə gedərkən bir an belə qorxmağı ağlına gətirməyən Vətən oğullarının xatirəsini anırıq. Çox qısa bir vaxtda Azərbaycan əsgərinin Vətənə hədsiz məhəbbətinin, Vətən uğrunda düşməndən özünü qurban verməyinin nəticəsində bu cür möhtəşəm və sürətli qələbəyə nail olduq. Sədrin birinci müavini onu da vurğulayıb ki, Vətən müharibəsində şəhid olduğumuz xalq, dövlət və rəhbər birliyi uzun illərdir görünməyən ən yüksək həddinə çatdı. 44 günlük haqq savaşı zamanı xalqın hər bir fərdi qalib Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi və biz möhtəşəm qələbəmizə nail olduq, zəfərimizi ən yeni tarixə qızıl hərflərlə yazdıq.

Sədr müavini Sahib Nağıyev 44 günlük Vətən müharibəsində qazanılmış böyük Qələbənin Ulu Öndər Heydər Əliyev ideologiyasının nəticəsi olduğundan danışaraq bildirib ki, məhz Ümummilli Lider tərəfindən təməli qoyulan ordu quruculuğu və müdafiə məsələləri ilə bağlı atılan mühüm addımlar bizi qələbəyə apardı. Bu gün qürurla deyə bilərik ki, Ulu Öndər siyasətinin layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevin sayəsində dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız təhlil olunur, dünyanın aparıcı ölkələri tərəfindən "Dəmir yumruq" əməliyyatının bütün incəlikləri öyrənilir. S.Nağıyev cəmi 44 gün davam edən döyüşlərdə ordumuzun əldə etdiyi tarixi Qələbənin heç də təsadüfi olmadığından, milliyyətindən, dinindən, irqindən asılı olmayaraq hər bir vətəndaşımızın həqiqətən də bir yumruq kimi eyni amal uğrunda birləşməsindən bəhs edib. O bildirib ki, məhz bu birlik, iqtidarla xalqın həmrəyliyi bizi qalib ölkəyə çevirdi.

İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva 44 günlük Vətən müharibəsi dövründə Komitə tərəfindən həyata keçirilən layihələrə, tədbirlərə diqqət çəkib. Bu istiqamətdə sosial media vasitəsilə təşkil edilən kampaniyalara nəzər salan şöbə müdiri DQİDK-nın sifarişi əsasında çəkilən videoçarx və sənədli filmlər barədə məlumat verib. Bildirib ki, mütəmadi olaraq televiziya və sosial media vasitəsilə nümayiş olunan film və videoçarxlar əsasən gənclərin vətənpərvərlik və həmrəylik ruhunda tərbiyə edilməsinə, Qarabağda erməni vandallar tərəfindən dağıdılan və zərər vurulan dini abidələrimizə, eləcə də alban irsinin saxtalaşdırılmasının ifşasına yönəlib. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə təbliği barədə də danışan şöbə müdiri DQİDK-nın təşəbbüsü ilə bu istiqamətdə müxtəlif dillərdə alt yazılarla yayımlanan filmlər, nəşr edilən kitablar, o cümlədən xarici mətbuatda nəşr edilən müsahibə və məqalələrin əhəmiyyətinə toxunub.

# SƏYYAD SALAHLI: AZƏRBAYCANIN ZƏNGİN TOLERANTLIQ ƏNƏNƏLƏRİNİN TƏŞVİQİ VƏ TƏBLİĞİ DÖVLƏTİN PRİORİTETİDİR

***Prezident İlham Əliyevin misilsiz xidmətləri sayəsində Azərbaycan dünya ölkələri sırasında öz layiqli yerini tutub, milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilərək dünyaya çatdırılmasında böyük uğurlar əldə olunub. Dövlət başçımızın diqqət və qayğısı sayəsində xalqımızın əsrlərin sınağından çıxan milli adət-ənənələrinin yaşadılması üçün bütün lazımi şərait yaradılıb. Məhz həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, ölkəmizdə dövlət-din münasibətləri beynəlxalq hüquq normaları çərçivəsində tənzimlənir.***

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı "İki sahil" qəzetinə müsahibəsi:***

***- Səyyad müəllim, əvvəlcə bilmək istərdik ki, DQİDK-nın tabeliyində hansı qurumlar fəaliyyət göstərir?***

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində iki qurum - Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutu fəaliyyət göstərir. Azərbaycanın ən yeni tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərinin şahidi oluruq. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu Öndər xalqımızın azərbaycançılıq ideologiyasının əsasında gələcəyə gedən yolunu böyük uzaqgörənliklə müəyyən etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan Ümummilli Liderimiz Heydər Əliyev bu sahədə lazımi addımların atılmasına zəmin yaratmışdır. Məhz bunun nəticəsində milli-mənəvi dəyərlər sistemimiz daha da güclənmiş, aşınmadan xilas olmuş, milli dövlətçiliyimizin möhkəmlənməsinə öz töhfəsini vermişdir. Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atır. Dövlət başçısının tapşırığı ilə ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması da bu sahəyə verilən dəyərin göstəricisidir. Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə yaradılan Azərbaycan İlahiyyat İnstitutu da dövlət səviyyəsində dini sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Tədris proqramında dini biliklərlə yanaşı, mükəmməl dünyəvi biliklərin də yer aldığı bu elm ocağında təhsil alan gənclərimizin Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin və zəngin multikultural mühitin qorunub saxlanılmasında xüsusi rola malik olacaqlarına əminəm.

davamı səh. 6

# SƏYYAD SALAHLI: AZƏRBAYCANIN ZƏNGİN TOLERANTLIQ ƏNƏNƏLƏRİNİN TƏŞVİQİ VƏ TƏBLİĞİ DÖVLƏTİN PRİORİTETİDİR

əvvəli səh. 5

***- Bəs, DQİDK-nın fəaliyyət istiqamətləri və vəzifələri barədə nə deyə bilərsiniz?***

- Komitənin əsas fəaliyyət istiqaməti Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə müvafiq olaraq dini etiqad azadlığının həyata keçirilməsi üçün münasib şəraitin yaradılması ilə bağlıdır.

Dövlət Komitəsinin vəzifələri sırasına dini etiqad azadlığının təmin olunması, dini etiqad azadlığı sahəsində vahid dövlət siyasətinin formalaşması, bu siyasətin həyata keçirilməsi, dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafının təmin edilməsi, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, dini qurumların dövlət qeydiyyatının həyata keçirilməsi, öz səlahiyyətləri daxilində dini təhsil ilə bağlı məsələlərin tənzimlənməsi, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlər daxildir.

Dövlət Komitəsinin dinşünaslıq ekspertizasının aparılmasının təmin edilməsi məqsədi ilə dini qurumların nümayəndələrini və müvafiq mütəxəssisləri cəlb etmək, nəzarət markası ilə markalanmış dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məlumatların və dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrinin fəaliyyəti barədə məlumatlar almaq, dini qurumların fəaliyyəti ilə bağlı mübahisəli məsələlərin qanun çərçivəsində tənzimlənməsində iştirak etmək, yaranmış problemlərin həlli barədə müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırmaq, dövlət-din münasibətləri sahəsində məqsədli proqramlar hazırlamaq və s. bu kimi hüquqları var.

Komitənin fəaliyyətində əsas prioritet hədəflərə vətəndaşların vicdan azadlığının təmin edilməsi, dini ənənələrin, dözümlülük və tolerantlıq münasibətlərinin qorunması, dini mühitdəki radikal elementlərin qarşısının alınması, dini qurumların dövlət qeydiyyatı məsələsinin təkmilləşdirilməsi və prosesin sürətləndirilməsi, dini təyinatlı ədəbiyyatın və materialların ekspertizasının aparılması və yayılmasına müvafiq nəzarətin həyata keçirilməsi, dini qurumların fəaliyyətinin milli dövlətçilik maraqlarına və cəmiyyətin sosial problemlərinin həllinə cəlb edilməsi, dini maarifçilik işinin düzgün metodlarla təşkili və gücləndirilməsi, dini sahədə qanunvericiliyin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi, Azərbaycanın dövlət-din münasibətləri modelinin beynəlxalq aləmdə təbliğ olunması və s. aiddir.

***- Pandemiya dövründə dini tədbirlərin keçirilməsi necə təşkil olunur?***

- Bildiyiniz kimi, bu gün qlobal problemlər siyahısında ön sırada koronavirus pandemiyası dayanır. İki ilə yaxındır ki, bütün dünyada koronavirusla bağlı kütləvi toplantıların və tədbirlərin keçirilməsinə müvəqqəti məhdudiyyətlər qoyulub. Ölkəmizdə 2021-ci ilin əvvəlindən həyata keçirilməsinə başlanılmış vaksinasiya prosesinin uğurla davam etdirilməsi xüsusi karantin rejimi çərçivəsində tətbiq olunmuş bir sıra məhdudiyyətlərin aradan qaldırılmasına əlavə imkanlar yaratdı. Dini ibadət yerlərinin (eyni vaxtda ibadət üçün nəzərdə tutulan yerlərin 50 faizindən (ümumi olaraq 50 nəfərdən) çox olmamaqla) fəaliyyətinə icazə verilib. Dini bayramlar, ənənəvi olaraq, böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl olunmasının təmini qeyri-mümkün olan mərasimlər insanların virusa yoluxma sayının artma ehtimalı baxımından böyük təhlükə yarada bilər. Bu gerçəkliyi nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası və səlahiyyətli nümayəndələrinin Məhərrəm ayının başlaması ilə əlaqədar müraciətində də bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda ibadət və mərasimlərin karantin qaydalarına uyğun olaraq keçirilməsinin vacibliyi vurğulandı.

***- Səyyad müəllim, deyə bilərsinizmi DQİDK radikalizmlə mübarizə, Azərbaycanın zəngin tolerantlıq ənənələrinin ölkə daxilində və beynəlxalq aləmdə təbliğ edilməsi istiqamətində hansı tədbirlər həyata keçirir?***

- Günümüzdə təəssüf ki, dindən bəzi maraqlar naminə istifadə edən, yaxud din pərdəsi altında müxtəlif destruktiv fəaliyyətlərə yönələn qruplar inanc kimi saf və ülvi duyğulardan istifadə edərək öz məkrli məqsədlərini həyata keçirməyə cəhdlər göstərirlər. Azərbaycan vətəndaşlarının, xüsusilə gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə aidiyyəti dövlət qurumları ilə birgə hazırlanan Tədbirlər Planının həyata keçirilməsi, dini maarifləndirmə sahəsində tədbirlərin təşkili, o cümlədən müvafiq kontingentin həmin tədbirlərdə iştirakının təmin edilməsi istiqamətindəki fəaliyyət Dövlət Komitəsinin prioritetləri sırasındadır. İdeoloji baxımdan dini radikalizmə qarşı mübarizədə maarifçilik əsas silahdır. Bu məqsədlə dini maarifləndirmənin gücləndirilməsi, dinimizin düzgün şəkildə insanlara, xüsusilə gənclərə aşılanmasının radikalizmin qarşısının alınmasında ən effektiv vasitədir. Ümumi təhlillər əsasən gənclərin bu təsirlərə daha çox dini biliklərinin zəif olması və savadsızlığı səbəbindən məruz qaldıqlarını göstərir. Buna görə radikalizmə və fanatizmə alternativ kimi ənənəvi İslamın təbliği üçün hərtərəfli maarifləndirməni özündə ehtiva edən kompleks işlərin həyata keçirilməsi məqsədilə respublikanın bütün bölgələrində tədbirlər təşkil olunur. Gənclərimizin İslam dinini hər hansı xarici mühitin təsiri ilə deyil, öz milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi, Azərbaycançılıq ideyasına bağlı şəkildə öyrənmələri olduqca vacib məsələdir. Pandemiya ilə əlaqədar olaraq hazırda maarifləndirmə işi onlayn formatda təşkil olunan tədbirlər və DQİDK-nın sifarişi əsasında hazırlanan videoçarxlar, eləcə də Komitənin televiziyalarda yayımlanan müəllif proqramları vasitəsilə həyata keçirilir.

Azərbaycanın zəngin tolerantlıq ənənələrinin ölkə daxilində və beynəlxalq aləmdə təbliğ edilməsinə gəlincə isə xalqımızın minilliklər boyu formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də bu istiqamətdə üzərinə düşən missiyanı uğurla davam etdirir. Komitə xaricdə Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərin, eləcə də zəngin mənəvi-əxlaqi irsinin təbliği istiqamətində konfrans, sərgilərin və s. tədbirlərin keçirilməsi, o cümlədən mütəmadi olaraq xarici mətbuatda məqalələrin nəşr edilməsini, kitabların çap edilməsini təmin edir.

***- İşğaldan azad olunmuş torpaqlarımızda tarixi-dini abidələrin bərpa olunması ilə bağlı konsepsiya hazırlanırmı?***

- Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı Qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi sayəsində böyük Zəfərə imza atdı. Təəssüflə qeyd etməliyəm ki, işğaldan azad olunmuş ərazilərdəki tarixi-dini abidələr nəinki vandalizmə məruz qalıb, eyni zamanda, təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli-mənəvi irsi təhqir edilib. İşğaldan azad olunmuş ərazilərimizdəki 67 məsciddən (Şuşada 18, Ağdamda 5, Füzulidə 19, Zəngilanda 6, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 3, Kəlbəcərdə 2, Xocavənddə 1) 65-i tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb.

Azərbaycan dini-mənəvi irsə qayğı ilə yanaşan, milli və ümumbəşəri dəyərləri himayə edən, dini məbədləri dövlət səviyyəsində təmir, inşa və bərpa edən dövlət kimi tanınır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən Heydər Əliyev Fondu tərəfindən mütəxəssis qrupu işğaldan azad olunan ərazilərimizdə ermənilər dağıtdığı dini abidələr, məscidlərin bərpasına dair layihə üzrə işlərə başlayıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin müharibədən qısa müddət sonra Şuşada yeni məscidin təməlini qoyması, Zəngilanda erməni vandallığına məruz qalan məscidin, eləcə də Ağdamda "Qiyaslı" məscidinin yenidən qurulması işlərinə başlanılması, həm də "Qazançı" kilsəsində bərpa işlərinin aparılması dövlətimizin milli-mənəvi, tolerantlıq dəyərlərinə verdiyi önəmin növbəti təzahürüdür.



***- Yas mərasimlərində israf məsələsi həmişə aktual olub. Bu gün bu məsələ nə yerdədir?***

- Mərasimlərdə israf məsələsi uzun illər cəmiyyət tərəfindən müzakirə mövzusu olub. Çünki dəfn mərasimlərində və növbəti günlərdəki təmtəraqlı ehsan süfrələri, göstərişli qəbir daşları uzun illər insanlar tərəfindən adət-ənənənin tələbi kimi qəbul edilib. Əzizini itirən bəzi şəxslər sosial vəziyyətindən asılı olmayaraq, "camaatla ayaqlaşmaq" üçün bəzən borc alıb, hətta kredit götürərək ehsan süfrələri açıb, bahalı başdaşı düzəltdiriblər. Daha sonra borcu qaytarmaq üçün aylarla, illərlə əmək sərf ediblər. Dəfələrlə bunların şahidi olmuşuq.

Sevindirici haldır ki, son illər istər paytaxtda, istərsə də demək olar ki, bütün bölgələrdə yas mərasimlərində ehsan süfrələrinin sadələşdirilməsini müşahidə edirik. Artıq insanlar təmtaraqlı süfrələr açmağın vəfat etmiş yaxınları üçün dini-mənəvi fayda vermədiyini, əksinə, israfın İslamda xoş olmayan əməl sayıldığını başa düşürlər. Hətta ölkənin bəzi rayonları, kəndlərində sadə ehsan süfrəsi norma kimi qəbul edilir və hər kəs bu qaydaya riayət edir.

Koronavirus pandemiyası bir çox sahədə olduğu kimi, yas mərasimlərinin keçirilmə formasına da təsirsiz ötüşmədi. Karantin rejimi yas mərasimləri barədə yenidən düşünmək və israfdan uzaq olmaq üçün fürsət oldu.

***- Azərbaycan vətəndaşlarının xaricdə qanunsuz silahlı qruplara qoşulması hallarına qarşı hansı tədbirlər görülür?***

- Dövlət Komitəsi hazırda dini xurafat, fanatizm, radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının qarşısının alınması istiqamətində maarifləndirmə tədbirlərini davam etdirir. Burada əsas məqsəd vətəndaşlarımızın, xüsusilə gənclərimizin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli maraqlarımıza zidd ideoloji təlimlərə qoşulmalarının və yayılmasında rol oynamalarının qarşısını almaqdan ibarətdir. Qeyd edim ki, hazırda vətəndaşlarımız arasından xaricdə olan qanunsuz silahlı qruplara qoşulanlar yox dərəcəsindədir. Bu məqamda, təbii ki, xüsusi olaraq hüquq-mühafizə orqanlarının fəaliyyətini qeyd etməliyik. Dövlət Komitəsi onlarla birgə profilatik tədbirlər həyata keçirir ki, bu da Azərbaycan vətəndaşlarının xaricdə dini ekstremist qruplara qoşulmasının qarşısını almaqdadır.

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNDƏ ANIM GÜNÜ İLƏ ƏLAQƏDAR TƏDBİR KEÇİRİLİB



**Sentyabrın 29-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) 27 sentyabr - Anım Günü ilə əlaqədar tədbir keçirilib.**

Əvvəlcə Vətən uğrunda canlarını qurban verən qəhrəman şəhidlərimizin ruhuna dualar oxunub. Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə deyib ki, bu günlərdə xalqımız öz tarixinin ən möhtəşəm həyacanını və qürurunu – Zəfər yolunun başlanğıcı sayılan 27 sentyabr - Anım Gününü qeyd edib: "Biz fəxr edirik ki, bu Qələbənin müəllifi və sərkərdəsi Azərbaycan xalqının böyük oğlu, adı tarixin qızıl səhifəsinə yazılan Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bu 44 gün ərzində onun əzmi, qətiyyəti, mərdliyi, cəsarəti hər kəsə - Ordumuzun əsgərlərinə, xalqımızın övladlarına, dinindən və dilindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına unudulmaz anlar yaşatdı, Azərbaycanın dostlarına da, düşmənlərinə də siyasi Liderimizin qüdrətini, dəmir yumruq kimi birləşən xalq-dövlət birliyini nümayiş etdirdi". QMİ sədri deyib ki, Prezident İlham Əliyevin şəhidlərə yüksək fəxri adlar verməsi, həmçinin Prezidentimizin silahdaşı, siyasi və ictimai xadim, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid və qazi ailələrinə, yaralı hərbçilərə maddi-mənəvi dəstəyi, sosial yardım proqramlarına rəhbərliyi vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir, dindarlarımızın xeyir-duaları ilə qarşılanır.

QMİ sədrinin birinci müavini müfti Salman Musayev bildirib ki, 44 günlük Vətən müharibəsində böyük Qələbə qazanmışıq. Lakin düşmən yenə də susmur, azad etdiyimiz torpaqları "öz ərazilərinin işğalı kimi" qələmə verməyə çalışırlar. Buna görə, biz bu məsələni daim diqqətdə saxlamalı, bu sahədə də öz mübarizəmizi davam etdirməliyik. Beynəlxalq ictimaiyyətə Azərbaycan həqiqətlərini çatdırmalıyıq.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib ki, ermənilər bütün dünyaya Azərbaycanla bağlı yalan məlumatlar yaymağa çalışırdılar. Biz 44 günlük mübarizədə təkcə torpaqlarımızı azad etmədik, eyni zamanda, bütün dünyaya göstərdik ki, döyüşkən xalq necə olur. Biz bütün dünyaya sübut etdik ki, Vətənimiz üçün canımızdan da keçməyi bacarırıq. Ermənilər bütün dünyaya bizim imanlı xalq olmadığımızla bağlı yanlış məlumatlar yaymağa çalışırdılar. Lakin, 44 günlük mübarizədə çox sayda dindarlarımız şəhid ailələri ilə birgə oldular, onların dərdinə şərik çıxdılar. Onlar bu mübarizədə təkcə dindar olmadılar, həmçinin Vətən övladı oldular. Din xadimlərimiz necə ki, daim dövlətimizin yanında olublar, əminəm ki, bu bundan sonra da davam edəcək.

Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete və digər çıxış edənlər şəhidliyin ən uca zirvə olduğunu bildiriblər. Qeyd edilib ki, belə ucalığa yüksələn, bu şərəfli adı daşıyanların xatirəsi daim yaşayıb, yaşayır və nəsillər dəyişdikcə də yaşayacaq. Vətənimizin müstəqilliyi, işğal altında olan torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz bu müqəddəs amal uğrunda şəhid olursa, bu, xalqımızın böyüklüyüdür.

# AZƏRBAYCANIN DİNİ KONFESSİYA RƏHBƏRLƏRİ BƏYANAT YAYIB

**Azərbaycanın dini konfessiya rəhbərləri bəyanat veriblər. Bəyanatda deyilir:**

**"Uca Yaradanın Adı ilə!**

Azərbaycan xalqının tarixinə əbədi həkk olunan 27 sentyabr 2020-ci il tarixinin ilk ildönümünü qeyd edirik. Bu tarix təkcə bizim üçün deyil, bütün bəşəriyyət üçün Haqq və Ədalətin təcəllisi günü, Böyük Zəfər yolunun başlanğıc nöqtəsi kimi yaddaşlarda əbədi qalacaqdır. Bizim xalqımız bu Anım gününü Vətən uğrunda qəhrəmanlıq və şəhadətin Şərəf salnaməsi kimi daima yaşadacaqdır!

Biz fəxr edirik ki, bu Qələbənin müəllifi və sərkərdəsi Azərbaycan xalqının böyük oğlu, adı tariximizə Qarabağ Fatehi kimi daxil olmuş Zati-aliləri Ali Baş komandan İlham Əliyev cənablarıdır. Vətən müharibəsi ərzində onun liderlik əzmi, qətiyyətli siyasəti, mərdliyi, cəsarəti hər kəsə - ordumuzun əsgərinə, xalqımızın övladlarına, dinindən və millətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz anlar yaşatdı. Dünya ictimaiyyəti Azərbaycanın siyasi liderinin qüdrətinin və ölkəmizdəki sarsılmaz xalq-iqtidar birliyinin şahidi oldu. Tarixi Azərbaycan şəhəri Şuşa qəhrəmancasına işğaldan azad olunaraq öz əsl sahibinə qaytarıldı. Azərbaycan Prezidenti Zati-aliləri İlham Əliyev və qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın imzaladıqları tarixi əhəmiyyətli Şuşa Bəyannaməsi regionumuzda yeni geosiyasi vəziyyət yaratdı.

Bu gün biz Azərbaycan dövlətinin gələcəyinə böyük inam və ümidlə baxırıq. Bu ruh yüksəkliyinin əsas mənbəyi dövlətimizin başçısı İlham Əliyev cənablarının prinsipial və qətiyyətli mövqeyi, ölkəmizdə aparılan geniş miqyaslı quruculuq işləri, xalqın rifahına yönələn sosial-iqtisadi proqramların gerçəkləşməsində Prezidentimizin silahdaşı, siyasi və ictimai xadim, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təqdirəlayiq roludur. Mehriban xanımın şəhid və qazi ailələrinə, yaralı hərbçilərə nəcib şəfqətli münasibəti, maddi-mənəvi dəstəyi və sosial yardım proqramlarına rəhbərliyi vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir, dindarlarımızın xeyir-duaları ilə qarşılanır.

Dünya ictimaiyyəti yaxşı bilir ki, bizi 27 sentyabra aparan səbəblər son dərəcə ciddi və danılmaz həqiqətlərdir. Təqribən 30 il ərzində Ermənistan ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayırdı. İşğal müharibə və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etməyən Ermənistan cəzasızlıqdan ruhlanaraq işğalın davam etdirilməsi yolunu seçdi, qəsdən danışıqlar prosesini pozdu. 2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədi boyu hərbi təxribat törətdi. Azərbaycanın Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində 13 hərbçi və mülki vətəndaş həlak oldu, daha sonra avqust ayında Ermənistanın diversiya qrupu keçmiş təmas xəttini keçərək Azərbaycan hərbçilərinə və mülki şəxslərə qarşı terror aktları törətməyə cəhd etdi, lakin bunun qarşısı uğurla alındı. Ermənistanın Azərbaycanın hərbi mövqelərinə və mülki şəxslərinə qarşı irimiqyaslı hücumuna cavab olaraq, sentyabrın 27-də Azərbaycan BMT Nizamnaməsində təsbit edilmiş özününüdafiə hüququndan istifadə edərək, öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladı.

44 gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayonlarımızı və şəhərlərimizi – Ağdam, Ağcabədi, Beyləqan, Daşkəsən, Füzuli, Goranboy, Tərtəri intensiv şəkildə atəşə tuturdu. Zəbt olunmuş ərazilərimizdə müsəlman və xristian məbədlərini dağıdan, müharibə qanunlarını, beynəlxalq hüquq normalarını, Cenevrə Konvensiyasının müvafiq müddəalarını pozan Ermənistan Silahlı Qüvvələri qadağan olunmuş silah və bombalarla təmas xəttindən, həmçinin, cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər şəhərləri də atəşə tutur, yüzlərlə günahsız insanın, uşaq, qadın və qocaların ölümünə səbəb olur, mülki məntəqələrə zərbələr endirirdi. Hətta paytaxt Bakı da Ermənistanın raket hücumlarının hədəfi idi. İşğal dövründə ərazilərimizin minalanması səbəbindən bu günədək mülki əhali və hərbçilər həlak olur və xəsarət alırlar.

27 sentyabrdan başlanan və 44 gün davam edən savaş Ermənistanın məğlubiyyəti ilə Azərbaycan ordusunun şanlı zəfəri kimi tarixə yazıldı. Azərbaycan BMT qətnamələrinin icrasını özü təmin etdi, 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi.

Həsrətində olduğumuz Qarabağın azadlığı naminə övladlarımız Allah yolunda, Vətən və millətin azadlığı uğrunda canlarını fəda etdilər, qanları ilə qazandıqları Qələbəni Azərbaycan xalqına əmanət etdilər.

Qarabağın azad olunması uğrunda, Vətən müharibəsi dövründə Azərbaycanda ənənəvi olaraq mövcud olan tolerantıq və multikultural dəyərlərə istinadən bütün vətəndaşlarımız Azərbaycanın dövlət başçısı Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək Vətənə sadiqliklərini nümayiş etdirdilər. Polad Həşimov, Mübariz İbrahimov, Albert Aqarunov, Denis Pronin, Yuri Kovalyov, Ruslan Polovinko, Sergey Senyuşkin və b. kimi yüzlərlə qəhrəmanımız doğma Azərbaycan üçün şəhidlik zirvəsinə ucaldılar. Onların əziz xatirəsi əbədi olaraq yaddaşlarda yaşayacaqdır. Biz ölkəmizin suverenliyi və ərazi bütövlüyü naminə canından keçən hər bir şəhidimizə Allahdan rəhmət, qazilərimizə şəfalar diləyirik.

Tariximizin çox mürəkkəb və məsuliyyətli dönəmində bizi dəstəkləyən qardaş və dost ölkələrə, dini təşkilatlara və beynəlxalq qurumlara minnətdarlığımızı bildiririk. Fəqət təəssüflə qeyd etməliyik ki, illər boyu Ermənistan dövlətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətləri, mədəni-mənəvi irsimizə qarşı vandalizm faktlarını ört-basdır etmək istəyən qüvvələr bu gün də ikili standartlara erməni terrorizminə və azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasətinə haqq qazandırmaq üçün səy göstərirlər. Ermənistanı bir daha işğalçı, revanşist, millətçi, separatçı siyasətindən əl çəkməyə çağırırıq. Erməni Kilsəsini təxribatçı, qisasçı müharibəyə səsləyən çağırışlara son qoymağa, sülh üçün səy göstərməyə dəvət edirik – bu, Bir Olan Yaradanımızın buyurduğu müqəddəs dəyərlərə ən uyğun yoldur.

Biz din xadimlərinin əsas məqsədi - gələcəkdə baş verəbiləcək müharibələrin, günahsız insan tələfatının, terror aktları və münaqişələrin qarşısını almaq üçün tarixin dərslərini xatırlatmaqdır. Bu niyyətlə, təqvimimizə Böyük Zəfər yolunun başlanğıcı kimi yazılan 27 sentyabr Anım günündə qəhrəman şəhidlərimizə Ulu Yaradandan rəhmət diləyirik. Uca Rəbbimiz Azərbaycan dövləti və xalqını hifz etsin, hər zaman müzəffər qərar versin!"

Qafqaz Müsəlmanları İdarəsinin sədri
**Şeyxülislam Allahşükür Paşazadə**

Dağ Yəhudiləri dini icmasının sədri
**Milix Yevdayev**

Avropa Yəhudiləri dini icmasının sədri
**Aleksandr Şarovski**

Rus Pravoslav Kilsəsinin
Bakı və Azərbaycan Yeparxiyasının katibi
Protoiyerey **Mefodi Əfəndiyev**

Alban-udi dini icmasının sədri
**Robert Mobili**

# SƏYYAD ARAN: 35 İL SONRA – YENİDƏN ŞUŞALI GÜNLƏRİM

Azərbaycanın tanınmış qələm adamları otuz illik ayrılıqdan sonra azad Şuşada yenidən Vaqif poeziyasının işığına toplaşmışdılar. Onlar həmin gün həm Şuşanın yeni növrağının, həm də Vaqif Poeziya Günlərinin sevincini yaşayırdılar. Tanınmış ziyalılar – elm və mədəniyyət xadimləri Şuşa səfəri, möhtəşəm poeziya bayramı barədə təəssüratlarını, xatirələrini AZƏRTAC-ın oxucuları ilə paylaşırlar. Bu silsilədən olan növbəti yazını - yazıçı, filologiya elmləri namizədi Səyyad Aranın "35 il sonra – yenidən Şuşalı günlərim" sərlövhəli publisistik qeydlərini təqdim edirik.



Şuşa ilk sevgi kimidir. Bir dəfə görən o ilahi məkana əbədi vurulur. Sonra klassik şairlər demişkən, təkrar-təkrar "vüsala yetmək" istəyir. Mən Şuşada ilk dəfə məktəbli ikən – 1967-ci ildə pioner düşərgəsində olmuşam. İkinci dəfə 1969-cu – ildə bu dəfə də pioner düşərgəsində – amma o vaxtkı Pedaqoji İnstitutun filologiya fakültəsinin II kurs tələbəsi – gənc müəllim kimi.





Şəkildə gördüyünüz mənzərə Şuşada ilk stadionun açılış günüdür. Əlbəttə, "stadion" sözü futbol qapılarının (olduqca sadə və bəsit), bir də adicə torun müşayiətilə assosiasiya edilən hamarlanmış torpaq sahəsi idi. Şəhərə səs yayılmışdı ki, "Neftçi" futbol komandası (üç il əvvəl SSRİ çempionatının bürünc medalçısı) Şuşaya gələcək. Yerli camaat da, dincəlməyə gələnlər də – onların arasında SSRİ-nin müttəfiq respublikalarından müxtəlif millətlərin nümayəndələri də vardı – hamı həyəcanla bu tarixi hadisənin şahidi və iştirakçısı olmaq istəyirdilər. Şəhər rəhbərliyi buldozerləri, traktorları, lazım olan digər texnikaları gətirdib meydança üçün nisbətən uyğun bir yer seçib oranı sahmana saldılar. Ot örtüyündən və oturacaqlardan söhbət gedə bilməzdi. Oturacaqları təbii relyefi amfiteatrı xatırladan xırda kömbə təpələr, yamaclar təşkil edirdi.



Əlbəttə, "Neftçi" gəlmədi, SSRİ çempionatının qızğın vaxtı idi. Amma əvəzində kifayət qədər peşəkar hansısa "Burevestnik", "Ehtiyat əmək qüvvələri" – dəqiq xatırlaya bilmirəm, 52 il keçib üstündən – buna bənzər bir klub torpaq meydançaya çıxdı. İlk məşqlərindən məlum oldu ki, mükəmməl komandadır, həvəskar şuşalıların onlarla oyunu heç də asan olmayacaq. Belə də oldu. İlk hissə 2-0 qonaqların xeyrinə bitdi. Yerlilər də, qonaqlar da mütləq şuşalıların qələbəsini istəyirdi. Amma ustalıq göz qabağındaydı. Həvəskar şuşalılar üstün ola bilmirdilər. Ustalıq səviyyəsi öz sözünü deyirdi. Elə bu zaman dalğa kimi bir söz bütün stadiona yayıldı. "İndi ağdamlı uşaqlar oyuna girib bakılıların dərsini verəcəklər". Doğrudan da, elə oldu. Bu dəfə ağdamlı uşaqların ustalığı, məharəti öz sözünü dedi və maç 3-2 hesabı ilə şuşalıların xeyrinə qurtardı. Sevinci, azarkeşlərin alqışlarını təsvir etməkdə acizəm.

Sonralar da bir neçə dəfə Şuşaya yolum düşdü. Hər dəfə də olduqca sağlam, güclü və xoşbəxt halda İmişliyə dönürdüm. Axırıncı dəfə 1986-ci ildə Şuşada oldum. Şagirdləri böyük şairimiz M.P.Vagifin abidəsini ziyarətə apardıq. Məktəblilər şeir dedilər. Elə oradaca kiçik bir "Vaqif" müsabiqəsi keçirtdik, qalibləri mükafatlandırdıq. Həyat yoldaşım, övladlarım Tural, Tenel və qohumumuzla şəkil çəkdirdik.

Və nəhayət!.. 29 avqust 2021-ci il!

Hamının can atdığı, amma bir qrup insana nəsib olan səadət! Azərbaycanın əsasən şair və yazıçılarından, elm və mədəniyyət xadimlərindən ibarət qrup Vaqif Poeziya Günlərinin açılışına gedir. Möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı mərasimi daha təntənəli və sanballı edəcək. Hamımız qürurluyuq. Axı tarixi hadisənin iştirakçıları olacağıq!

"Abadan kənd tüstüsündən, firavan şəhər yolundan bəlli olar" deyiblər. Nə qədər doğru və dəqiq söyləyiblər. Zəfər yolu qələbəmiz qədər gözəl və ürəkaçandır, müasir yolsalmanın ən gözəl örnəklərindən biridir. Yol getdikcə ürəyimiz dağa dönürdü, mənzərəli yerlərdə şəkil çəkdirirdik. Axı bu yerlərdə 30 ilə yaxın olmamışdıq...

Qonaqların bir qrupu 5 ulduzlu "Xarıbülbül" otelində, digərləri onun yaxınlığındakı beşmərtəbəli binada yerləşdilər.

Hamı doğmasına qovuşmuş həsrətlilər kimi Şuşanın müxtəlif istiqamətlərinə səpələndilər. Adamlar vaxtı ilə olduqları yerlərə tez baş çəkmək, xatirələri ilə bağlı məkanları görmək istəyirdilər. Gecə düşəndə kədərli, nisgilli, amma qürur dolu xatirələr bir-bir çözələnirdi. Xatirələr dalğasında kimlər yox idi – Xalq yazıçıları Anar, Elçin, Mövlud Süleymanlı, Natiq Rəsulzadə, Xalq şairləri Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Vahid Əziz, mədəniyyət naziri Anar Kərimov, Xalq artistləri Fərhad Bədəlbəyli, Fərhad Xəlilov, Polad Bülbüloğlu, görkəmli alim-diplomatlar Həsən Həsənov, Vilayət Quliyev, Milli Məclisin deputatları Qənirə Paşayeva, Jalə Əliyeva, Əziz Ələkbərli, Fazil Mustafa, akademiklər İsa Həbibbəyli, Rəfael Hüseynov, Nizami Cəfərov, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, tanınmış ədəbiyyatşünas alimlərdən, yazıçı və şairlərdən Vagif Yusifli, İlqar Fəhmi, Əsəd Cahangir, Məhərrəm Qasımlı, İntiqam Qasımzadə, Azər Turan, Elnarə Akimova, Yunus Oğuz, Pərvin Nurəliyeva, Barat Vüsal, Sayman Aruz, Sərvaz Hüseynoğlu, Şəhriyar Del Gerani, Dayandur Sevgin, Elxan Zal Qaraxanlı, Fərid Hüseyn... kimlər, kimlər...

Şuşada sürətli və keyfiyyətli quruculuq işləri gedir. Bütün səylər ona yönəlmişdir ki, qədim və tarixi şəhərin arxitekturası gözlənilsin. Ona görə də qoyulan hər bir daş, hörülən hər santimetr divar belə "yüz ölçülüb bir biçilir". Hər bir binaya həssaslıqla yanaşılır. Şuşanın memarlıq xüsusiyyətləri əvvəlki görünüşünə qaytarılır. Eyni zamanda müasir üslubda, tarixi evlərlə uyğunlaşan yeni binalar da inşa edilir. Vaqif Poeziya Günləri başlamadan bir gün öncə Prezidentin iştirakı ilə yeni 150 nəfərlik otelin təməli qoyuldu. Sürətli inşaatın bir də prinsipial məqsədi var: şuşalıların qayıdışını mümkün qədər tezləşdirmək. Bu ali məqsəd Prezident İlham Əliyev tərəfindən Vaqif Poeziya Günlərinin açılış mərasimindəki nitqində özünün dəqiq ifadəsini belə tapdı: "Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini, - hamımız yaxşı bilirik, - 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik.

Prezidentin çıxışında qarşıya qoyulan strateji hədəflər, ilk növbədə regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması, işğaldan azad edilən tarixi torpaqlarımızda genişmiqyaslı bərpa və quruculuq işlərinin aparılması, həmin ərazilərin yenidən dirçəldilməsi, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının təmin edilməsi ilə bağlıdır.

Şuşanın gecələri işıq selində üzür. Bu mənzərə Xankəndindən çox aydın görünür. Düşmənin bağrına dağ çəkməklə yanaşı əminəm ki, dinclik və sülh arzulayan sadə erməni vətəndaşlarının Şuşada yaşamaq, Azərbaycanın tabeliyində olmaq hissini də alovlandırır. Axı kim daimi gərginlikdə, yoxsulluqda, ən zəruri insani ehtiyaclarını ödəməkdə çətinlik çəkən ac, iqtisadi resursları çox cüzi olan ölkədə ömür çürütmək istəyər? Təsadüfi deyil ki, son zamanlar mətbuatda tez-tez erməni vətəndaşlarının yaşamaq üçün Şuşaya, digər Azərbaycan ərazilərinə keçmələri haqqında xəbərlər oxuyuruq. İnanıram ki, əvvəl-axır elə belə də olacaq: ermənilər Azərbaycan vətəndaşlığı alıb Azərbaycanda yaşamaq istəyəcəklər!

İlham Əliyev həm qüdrətli Prezidentdir, həm də layiqli övladdır. O, ata nəsihətini əsl övlad kimi ləyaqətlə yerinə yetirdi. Bu gün Azərbaycanın hər yerində Ulu Öndərin vəsiyyətləri çiçək açır. Qısa müddətdə Zəfər yolu çəkdirdi, Füzuli aeroportunu istifadəyə verdi, Laçında və Kəlbəcərdə yeni hava limanlarının hazırlıq işlərini həyata keçirdi. Ağdamda – bu qədim və mərd şəhərimizin geniş, əhatəli layihəsinin təməlini qoyub. Mütəxəssislər deyirlər ki, tam yeni və bənzəri olmayan bir şəhər tikiləcək ki, dörd gözlə baxılacaq.

İlham Əliyev həm də bir çox dövlət başçılarından fərqli olaraq Qalib Ali Baş Komandandır. O, Azərbaycan tarixinə adını qızıl hərflərlə yazdıraraq əbədi yaşayacaqdır.

İstər istəməz M.Müşfiqin sanki bu məqam üçün deyilmiş sözlərini xatırlayıram:

Mənim könlüm deyir ki,
hələ bunlar nədir ki,
gözəl günlər,
şanlı günlər,
şən günlər,
yoluna düşən günlər,
hələ qarşımızdadır.

# DÖVLƏT KOMİTƏSİNİN ABŞ-IN BEYNƏLXALQ DİNİ AZADLIQ ÜZRƏ KOMİSSİYASININ ARAYIŞININ AZƏRBAYCANLA BAĞLI HİSSƏSİNƏ DAİR BƏYANATI



Bu günlərdə ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyası (U.S. Commission on International Religious Freedom – USCIRF) "məzarlıqların dağıdılması" ("Destruction of Cemetries") adlı arayış yaymışdır. Təəssüf ki, çox vaxt olduğu kimi, arayışda da real vəziyyəti əks etdirməyən, ermənilərin yaydıqları yalan məlumatlara istinad olunan, Azərbaycan tərəfinin tarixi-dini, o cümlədən qəbirüstü abidələrə olan həqiqi münasibəti fonunda saxta iddialar irəli sürülmüşdür. Arayışın 2018-ci ildən sonranı əhatə etməsinə baxmayaraq, Azərbaycan üzrə bölməsində 2000-ci illərin əvvəllərinə aid edilən "Naxçıvan və Bakı üzrə iddialar" təkrarlanmış, azərbaycanlıların məzarlıqlarına qarşı ermənilərin vandal münasibətinin üzərindən ötəri keçilmiş, sənəddə "Yəhudi məzarlıqları" adlı ayrıca yarımbaşlıq olsa da, Ermənistanda 2020 və 2021-ci illərdə Holokost memorial abidəsinə və yəhudi məzarlığına qarşı vandallıq aktları əks olunmamışdır.

Bildiririk ki, ümumiyyətlə, Azərbaycanın müstəqillik tarixində heç bir məzarlığın və ya qəbiristanlığın dağıdılması qeydə alınmamışdır. 44 günlük Vətən müharibəsi müddətində belə Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin mülki obyektlərinə, habelə dini təyinatlı binalara hər hansı hücum əməliyyatı həyata keçirilməmişdir. Bu faktı xarici jurnalistlər də dəfələrlə təsdiqləmişlər.

Arayışda azərbaycanlılara məxsus məzarların və digər yerlərin dağıdılması, son müharibə dövründə erməni hərbi qüvvələrinin Tərtər rayonu ərazisində dəfn mərasimi zamanı qəsdən qəbiristanlığa atəş açması, 4 nəfərin həlak olması, 4 nəfərin yaralanması faktının "Human Rights Watch" təşkilatı tərəfindən təsdiq edildiyi vurğulansa da, qəribədir ki, həmin məlumatlar "Azərbaycan" adlı yarımbaşlıq altında qeyd edilməmişdir. Bütün bu deyilənlər və arayışda "Ermənistan" yarımbaşlığının, ümumiyyətlə, olmaması sözügedən materialın nə dərəcədə ermənipərəst və qərəzli mahiyyət daşıdığının göstəricisidir.

Təəssüf ki, Ermənistanın 30 ilə yaxın müddət ərzində işğal altında saxladığı BMT tərəfindən tanınan Azərbaycan ərazilərində etnik təmizləmə və soyqırımı həyata keçirməsi, Azərbaycan toponimlərini erməniləşdirməsi, yüzlərlə tarixi-mədəni abidələrlə yanaşı, mövcud olan 60-dan çox məscidi, 200-ə yaxın ziyarətgahı dağıtması və yarımuçuq məscidlərdə heyvan saxlamaqla dini dəyərləri təhqir etməsi, eləcə də Qafqaz Albaniyası mədəni irsinə və pravoslav kilsəsinə aid olan xristian məbədlərində saxtalaşdırma işləri görərək qriqoryanlaşdırması və ya dağıtması qeyd olunan sənəddə öz əksini tapmamışdır.

Heç kimə sirr deyil ki, işğal dövründə Azərbaycan vətəndaşları öz yaxınlarının məzarlarını ziyarətdən məhrum edilmiş, ümumilikdə 900-dən çox qəbiristanlıq ya tamamilə dağıdılaraq yerlə bir edilmiş, ya da cəsədlər çıxarılmış, təhqir olunmuş, qəbirüstü abidələr talan edilmişdir.

Bütün bu cinayətkar əməlləri ilə qarşı tərəf "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt", "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası və s. beynəlxalq norma və standartların tələblərini kobud surətdə pozmuşdur.

Qeyd edək ki, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələri ilə yanaşı, ICESCO, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ), Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu kimi beynəlxalq təşkilatlar, eləcə də xarici jurnalistlər azad edilmiş zonalarda missiyalarını həyata keçirərkən, qəbiristanlıqlara qarşı mənfur düşmənin törətdiyi vandalizm aktlarının nümunəsi olan Cəbrayıl rayonundakı məzarlığa da baş çəkərək bilavasitə şahidi olduqları erməni vəhşiliyinin dünya ictimaiyyəti tərəfindən pislənilməsi istiqamətində çağırışlar etmişlər.

Təəssüflər olsun ki, 30 illik işğal dövründə bəzi aidiyyəti beynəlxalq qurumlar məsələyə laqeyd münasibət bəsləmiş, Azərbaycan tərəfinin tələblərinə baxmayaraq, nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən UNESCO tərəfindən bu məsələlərlə bağlı faktaraşdırıcı missiya göndərilməmişdir.

Qeyd etmək lazımdır ki, hərbi əməliyyatlar bitdikdən dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən işğaldan azad olunmuş ərazilərdəki Ermənistan Silahlı Qüvvələrinin dağıtdıqları bütün dini abidələrin bərpa ediləcəyi bəyan edilmiş, həmin ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün ölkə başçısının tapşırıqlarına əsasən, "Böyük Qayıdış" proqramı əsasında bərpa prosesi başladılmışdır. Dövlət strukturları ilə yanaşı, bərpa prosesində Heydər Əliyev Fondu da yaxından iştirak edir və hazırda bərpa layihələri uğurla icra olunur.

Sonda, qərəzli və obyektiv olmayan məlumatlardan dərin təəssüf hissi keçirdiyimizi bildirərək, bir daha qeyd edirik ki, dünyada vicdan azadlığı ilə bağlı vəziyyəti təhlil etmək və qiymətləndirmək kimi məsuliyyəti üzərinə götürmüş ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyası sözügedən arayışa bəzi məsələləri araşdırmadan daxil etmişdir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi gələcəkdə bu sahədə hazırlanan hesabatların daha obyektiv və dürüst tərtib edilməsi üçün ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasını və digər müvafiq qurumlarını bir daha əməkdaşlığa dəvət edir.

# ANIM GÜNÜNDƏ ÖLKƏMİZDƏKİ MƏSCİD, KİLSƏ VƏ SİNAQOQLARDA ŞƏHİDLƏRİN RUHUNA DUALAR OXUNUB







Sentyabrın 27-si Azərbaycanda Anım Günü qeyd edilib. Anım Günündə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş bir sıra tədbirlər keçirilib. Şəhidlərimizin əziz xatirəsi Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - Heydər məscidində, Təzəpir məscidində, "Jen Mironosets" pravoslav kafedral kilsəsində, Bakının Avropa Aşkenazi Yəhudi Sinaqoqunda, Ağdam Cümə məscidində, Kəlbəcərdəki Xudavəng məbədində, Laçındakı Ağoğlan məbədində, Şuşadakı Yuxarı Gövhər Ağa məscidində və digər məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad edilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub, ölkəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar edilib.



Anım Günü Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Anım Günü ilə əlaqədar Gəncə şəhərindəki İmamzadə ziyarətgahında, eləcə də Yəhudi dini icması, Yeddinci günün adventistləri xristian icması və Rus pravoslav dini icmaları tərəfindən də anım mərasimləri təşkil edilib. DQİDK və Quba rayonu Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icmasının birgə təşkilatçılığı ilə "Giləki" sinaqoqunda keçirilən tədbirdə də şəhidlərimizin əziz xatirəsi yad edilib.

Mərasimlərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub. Şəhidlik haqqında, eləcə də 44 günlük Vətən müharibəsi barədə geniş çıxışlar edilib.

# ANIM GÜNÜ İLƏ ƏLAQƏDAR BÖLGƏLƏRDƏKİ ŞƏHİDLƏR XİYABANLARI ZİYARƏT OLUNUB



27 sentyabr – Anım Günü ilə əlaqədar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələrinin təşkilatçılığı ilə bölgələrdəki Şəhidlər xiyabanı ziyarət olunub. Belə ki, sentyabrın 22-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba və Şabran bölgələri üzrə qazılıqlarının birgə təşkilatçılığı ilə Quba şəhərində yerləşən Şəhidlər xiyabanı ziyarət edilib. Sentyabrın 25-də isə DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt şəhər Cümə məscidinin birgə təşkilatçılığı ilə Sumqayıt şəhərində yerləşən, Şamaxı və Qobustan rayonlarının din xadimlərinin iştirakı ilə Şamaxı şəhərindəki Şəhidlər xiyabanı ziyarət olunub.

Ziyarətlərdə DQİDK-nın bölgə şöbələrinin əməkdaşları, QMİ-nin bölgə qazıları, səlahiyyətli nümayəndələri, din xadimləri, İslam və qeyri-İslam dini icmalarının nümayəndələri, dindarlar və şəhid valideynləri iştirak ediblər.

Şəhidlərimizin ruhlarına dualar oxunub, Vətən, torpaq və şəhidlik haqqında çıxışlar edilib, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi Zəfərdə əsgərlərimizin misilsiz qəhrəmanlıqlarından bəhs olunub. Vurğulanıb ki, Ali Baş Komandanımızın "Dəmir yumruğ"u, Milli Ordumuzun yüksək peşəkarlığı, mübarizə əzmi işğalçıların təslim olması ilə nəticələnib.



Tədbirlərdə çıxış edən şəhid ailələrinin üzvləri anım mərasiminin təşkilatçılarına təşəkkürlərini bildiriblər.

# GƏNCƏDƏ YƏHUDİLƏRİN "ROŞ-HA-ŞANA" BAYRAMI VƏ ALEKSANDR NEVSKİ RUS PRAVOSLAV KİLSƏSİNİN 134 İLLİYİ QEYD EDİLİB

Sentyabrın 7-də Gəncədə yəhudilərin Yeni il bayramı - "Roş-Ha-Şana" münasibətilə tədbir keçirilib. Bayram tədbirində Gəncə şəhər Yəhudi dini icmasının üzvləri və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Gəncə bölgəsinin nümayəndələri iştirak ediblər.



DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov çıxış edərək hər il Azərbaycanda böyük təntənə ilə qeyd edilən "Roş-Ha-Şana" bayramının yeniliyi, mənəvi saflığı, xeyirxahlıq və həmrəylik duyğularını təcəssüm etdirdiyini bildirib.

Gəncə şəhər Yəhudi dini icmasının sədri Arif Babayev qeyd edib ki, Azərbaycan tarixən etnik-dini zənginliyi, tolerant və multikultural dəyərləri ilə seçilib. Yəhudi icmasının ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı özünəməxsusluğu, Azərbaycanda gedən böyük tərəqqi və inkişaf prosesində, vətəndaş cəmiyyəti quruculuğunda fəal mövqe nümayiş etdirməsi də məhz bundan xəbər verir.

Ölkədə tətbiq edilən xüsusi karantin rejimi qaydalarına uyğun şəraitdə təşkil olunan tədbir bayram süfrəsi ətrafında davam edib.

Qeyd edək ki, "Roş-Ha-Şana" yəhudi təqvimi ilə Yeni ilin başlanğıcı hesab olunur. Bayram günündə dualar oxunur, ehtiyacı olanlara əl tutulur, Tanrıdan günahların bağışlanması dilənir. Bayram süfrəsində dadlı təamlarla yanaşı, dəyirmi doğranmış yerkökü, balıq başı, nar, alma və balın olması vacibdir. Dəyirmi formada doğranmış yerkökü qızıl pulu, var-dövləti, süfrədəki balıq başı ailə başçısını, ailənin böyüyünü simvolizə edir. Bayram təamlarını dadarkən alma bala batırılaraq yeyilir ki, ilboyu ailədə şirinlik, isti münasibət hökm sürsün. Dənələnmiş nar isə ailənin böyüməsinə, yeni doğulacaq uşaqlara işarədir.

***

Sentyabrın 12-də isə Gəncədə fəaliyyət göstərən Aleksandr Nevski Rus Pravoslav Kilsəsinin 134 illiyi qeyd olunub. Kilsənin yaradılması ilə bağlı ibadət ölkədə tədbiq edilən xüsusi karantin rejimi qaydalarına uyğun olaraq keçirilib.

Bu münasibətlə DQİDK-nın Gəncə bölgəsi üzrə şöbə müdiri Həsən Məmmədov, Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov, Bakı və Azərbaycan Yeparxiyası rəhbərinin birinci köməkçisi, Yeparxiyanın Qərb bölgəsi üzrə rəhbəri, Müqəddəs Məryəm Ananın Mövludu ("Müqəddəs Məryəm – mövlud" pravoslav kilsəsi) kilsəsinin baş keşişi, proteiyerey Antoniy Dolinin kilsədə olub, kilsənin baş keşişi Varfolomey Denis Sotnikovla görüşüblər.

Qeyd edək ki, məbəd 1887-ci ildə köhnə qəbiristanlığın yerində həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına ucaldılmışdır.



Bizans üslubunda plint kərpicdən tikilmiş məbəd mənbələrə görə, 1916-cı ildə kafedral statusuna sahib idi. 1931-ci ildə Sovet hökuməti tərəfindən bağlanmış, 1935-1938-ci illərdə muzey binası kimi istifadə edilmişdir. Daha sonra muzey başqa bir yerə (məscidə) köçürülmüş və kafedral anbar kimi istifadəyə verilmişdir. 1946-cı ildə məbəd Rus Pravoslav Kilsəsinə qaytarılmışdır.

Kilsənin qədim interyerindən müxtəlif ikonalar günümüzə qədər gəlib çıxmışdır. Bunlar arasında müqəddəs Aleksandr Nevski və müqəddəs Mariya Maqdalena adına ikonaları xüsusilə qeyd etmək lazımdır.

# VATİKANIN DÖVLƏT KATİBİ NÜVƏ SİLAHLANMASININ YENİ MƏRHƏLƏSİ İLƏ BAĞLI NARAHATLIĞINI DİLƏ GƏTİRİB

Müqəddəs Taxt-Tacın dövlət katibi, kardinal Pyetro Parolin yeni AUKUS hərbi blokunun yaradılmasından sonra Hind və Sakit okeanlarında sualtı nüvə qayıqlarının qurulması və yerləşdirilməsi proqramı çərçivəsində nüvə silahlanmasının yeni mərhələsindən narahatlığını bildirib. Bu barədə "catholicnewsagency" məlumat yayıb.

P.Karolin jurnalistlərə açıqlamasında bildirib ki, Müqəddəs Taxt-Tac yenidən nüvə silahlanmasının əleyhinədir: "Müqəddəs Taxt-Tacın bütün keçmiş və indiki səyləri nüvə silahlarının məhdudlaşdırılmasına, yayılmasının qarşısının alınmasına və məhv edilməsinə yönəlib. Çünki onlar dünyada sülhün və təhlükəsizliyin qorunmasını təmin etmir, əksinə, dünyada sülhün varlığını təhlükə altında qoyur və getdikcə daha çox münaqişələrə səbəb olur".



Qeyd edək ki, AUKUS hərbi ittifaqı (sadalan ölkələrin adlarının abreviaturası) sentyabrın 15-də Avstraliya, ABŞ və Böyük Britaniya arasında müdafiə və təhlükəsizlik sahəsi ilə bağlı imzalanmış üçtərəfli pakt əsasında yaradılmışdır. Müqaviləyə əsasən, Vaşinqtonla London Avstraliya üçün ən azı 8 sualtı atom qayığı istehsal edəcək. Bu anqlasakson ittifaqı Çinin Hind-Sakit okean regionunda artan nüfuzuna qarşı yaradılmışdır.

# 700 illik illüstrasiyalı dua kitabı hərraca çıxarılacaq



"Sotheby's" auksionu ivrit dilində olan 700 illik illüstrasiyalı bayram duası kitabını (mahzor) hərraca çıxarır. "The Guardian"ın verdiyi xəbərə görə, başlanğıc qiyməti 4 milyon dollar olan kitabın qiymətinin 6 milyon dollara qədər yüksələcəyi proqnozlaşdırılır. Bu, günümüzə qədər mühafizə olunmuş ən qədim 20 dua kitabından biridir.

Mahzor bayramlarda oxunan dualar toplusudur (sözün hərfi mənası "dövr, tam dairə, təkrar" deməkdir). Roş Ha Şana, Yom Kippur və digər bayramlarda oxunan mahzorlar var. Günümüzə qədər çatan ən qədim əlyazma mahzor 875-ci ildə Bizansda ravvin Amram Qaon tərəfindən tərtib edilib və bir neçə əsr sonra Venesiyada yenidən nəşr olunub.

Hərraca çıxarılan "Luzzatto Ali Bayramlar Mahzoru" XIII əsrin sonu - XIV əsrin əvvəllərində Almaniyanın cənubunda tərtib edilmişdir və onda bir çox sahibinin qeydlərinə rast gəlinir. Dualar kitabı ən məşhur sahiblərindən biri, XIX əsrdə yaşamış italyan-yəhudi alimi və kolleksiyaçısı Samuel David Luzzattonun adını daşıyır. Ölümündən sonra dua kitabı "Alliance Israelite Universelle" yəhudi maarifləndirmə təşkilatı tərəfindən alınmışdır və hazırda təşkilat bundan sonrakı fəaliyyətini davam etdirmək üçün mahzoru "Sotheby's"da satışa çıxarmışdır.

## "İSLAM İRSİMİZİ TANIYAQ": ŞAMAXI CÜMƏ MƏSCİDİ



Mədəniyyət Nazirliyinin "İslam irsimizi tanıyaq" layihəsi çərçivəsində təqdim etdiyi növbəti material Şamaxı Cümə məscidinə həsr edilib.

Cənubi Qafqazın və Yaxın Şərqin ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi Xəlifə Xalid ibn Vəliyədin dövründə onun qardaşı Müslüm ibn Vəliyədin Azərbaycana gəlməsinin şərəfinə 743-cü ildə inşa olunub.

Bəzi mənbələrə görə, Xilafət ordularının məğlub etdiyi Xəzər xaqanı məhz bu məsciddə İslam dinini qəbul edib.

1859-cu ildə Qafqazın ən böyük quberniyalarından olan Şamaxıda baş verən dağıdıcı zəlzələdə zərər görən məscid bərpa edilib. 1902-ci ildə baş verən növbəti zəlzələ zamanı məscid dağılmayıb.

1918-ci ildə erməni daşnak dəstələri tərəfindən törədilən mart qırğınları zamanı Şamaxıda da soyqırımı aktı həyata keçirilib. Ən böyük qırğın isə Cümə məscidində baş verib. Şamaxılıların məscidə sığındığını görən ermənilər burada yanğın törədərək təqribən 1700 günahsız insanı xüsusi amansızlıqla qətlə yetiriblər.

Şamaxı Cümə məscidi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir olunub. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidin açılış mərasimində iştirak edib.

## AZƏRBAYCANIN DİASPOR ÜZVLƏRİ ODESSADAKI YENİ MƏSCİDİN TİKİNTİSİNƏ TÖHFƏ VERİBLƏR




Ukraynanın Odessa şəhərində yeni kafedral məscidin tikintisinin bünövrəsinin qoyulması münasibətilə təntənəli mərasim keçirilib.

Tədbirdə Odessa Regional Dövlət İdarəsinin rəisi Sergey Qrinevski, Odessanın meri Gennadi Truxanov, Ukrayna Müsəlmanları Dini İdarəsinin lideri Əhməd Tamim, bu qurumun Odessadakı nümayəndəsi İlyas Umarov, şəhərin müsəlman icmasının başçısı Kərim İlyasov, dövlət orqanlarının, diplomatik korpusun təmsilçiləri, Odessa azərbaycanlılarının "Birlik" diaspor təşkilatının üzvləri iştirak ediblər.

Çıxış edənlər müsəlman icmasının ibadət evinin yerləşdiyi məkanda yeni məscidin tikilməsini yüksək qiymətləndiriblər və tədbir iştirakçılarını əlamətdar hadisə münasibətilə təbrik ediblər. Qeyd edilib ki, bu addım təkcə Odessa müsəlmanları üçün deyil, çoxmillətli və multikultural dövlət olan Ukrayna üçün tarixi hadisədir. Azərbaycan diaspor üzvlərinin məscidin tikintisində fəal iştirakı vurğulanaraq bu müqəddəs işə verdikləri töhfəyə görə "Birlik" diaspor təşkilatına minnətdarlıq bildirilib.

Sonra tikintinin bünövrəsinə gələcək nəsillərə "sizə əmanət etdiklərimizi qorumaq və artırmaq" xahişinin əks olunduğu "Zaman Kapsulu" qoyulub.

## ICESCO İSLAM DÜNYASI İRSİ GÜNÜ MÜNASİBƏTİLƏ MÜRACİƏT YAYIB




İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (ICESCO) artıq ikinci ildir ki, üzv ölkələrdə qeyd edilən İslam Dünyası İrsi Günü münasibətilə müraciət yayıb.

Müraciətdə bu əlamətdar günün 2019-cu ilin dekabrında Tunisdə keçirilən ICESCO-ya üzv ölkələrin mədəniyyət nazirlərinin 11-ci konfransında bəşər mədəni irsinin mühüm hissəsi olan İslam irsinin qorunması məqsədilə təsis edildiyi diqqətə çatdırılıb. Hər il sentyabrın 25-də qeyd olunan bu gündə İslam ölkələrində tarixi mədəniyyət abidələrinin qorunması və bərpası məsələləri müzakirə edilir.

Müraciətdə vurğulanıb: "ICESCO tarixi mədəni irs abidələrinin qorunmasını prioritet məsələ kimi qarşıya qoyub və onların bir hissəsinin dağıdılması, xüsusən silahlı münaqişələr nəticəsində məhv edilməsi ilə bağlı narahatlığını ifadə edir. Təşkilat bütün üzv ölkələri öz ərazilərində olan irs abidələri haqqında nəşrlərin sayını artırmağa, onların bərpası təşəbbüsləri ilə çıxış etməyə çağırır. Bu sahədə İslam Dünyası İrsi Komitəsi ilə daha fəal əməkdaşlıq etmək faydalı olar".

ICESCO İslam irsinin qorunması üzrə müxtəlif proqram və layihələr həyata keçirildiyini xatırladaraq qeyd edib ki, təşkilat tarixi abidələrin bərpası və qorunması sahəsində təşkil olunan seminar və simpoziumlarda üzv ölkələrin ekspert və alimlərinin iştirakını təmin edir. "Biz bütün hökumətləri, vətəndaş cəmiyyətini və üzv ölkələrdəki mütəxəssisləri İslam irsinin daha yaxşı qorunması, əhalinin bu barədə məlumatlandırılması üzrə fəaliyyəti gücləndirməyə çağırırıq", - deyə müraciətin sonunda vurğulanıb.

## "ÜMUMBƏŞƏRİ DƏYƏRLƏR BÜTÜN İDEOLOGİYALARIN FÖVQÜNDƏ OLMALIDIR"



İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim bin Məhəmməd əl-Malik İtaliyada G-20 çərçivəsində keçirilən Dinlərarası Forumunun "Təhsil və dini müxtəliflik" sessiyasındakı çıxışında ümumbəşəri dəyərlərin bütün başqa ideologiyaların fövqündə olmasının zəruriliyini vurğulayıb.

Baş direktor insanları ayıran ideologiyaların zərərli olduğunu qeyd edib. O əlavə edib ki, gələcək nəsil mütəfəkkir və yaradıcı ruhda yetişdirilməli, dünyada sülh mədəniyyətinə töhfə verməlidir. Salim əl-Malik diqqətə çatdırıb ki, bu məqsədlə ICESCO-ya üzv ölkələrdə təhsil, mədəniyyət, ekologiya, sosial bərabərlik üzrə müxtəlif proqram və layihələr həyata keçirilir.

Baş direktor sülh institutlarının fəaliyyətinin əhəmiyyətini vurğulayaraq deyib ki, bəşəriyyət qarşısında duran əsas vəzifələrdən biri dayanıqlı qlobal sülhə nail olmaq və müharibələrin qarşısını almaqdır. O, bu baxımdan 2008-ci ildə təsis edilmiş Sülh və Təhlükəsizlik üzrə Regional Təhsil Mərkəzinin fəaliyyətini yüksək qiymətləndirib.

Salim əl-Malik çıxışının sonunda ölkələrin liderləri və rəsmilərini həmrəylik, qarşılıqlı anlaşma, tolerantlıq ruhunda davranmağa çağırıb. Bildirib ki, ICESCO-nun Məkkə Bəyannaməsinə uyğun olaraq həyata keçirəcəyi "Arzu etdiyimiz cəmiyyət" təşəbbüsü özündə bu dəyərləri ehtiva edir.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyanın diqqətini bir daha öz üzərinə çəkdi. Əminliklə demək olar ki, bu məğrurluğun əsasında xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.*

*İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər - şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abbasov İntiqam Yavər oğlu



Şəhid Abbasov İntiqam Yavər oğlu 1978-ci il sentyabrın 21-də Masallı rayonunun Köçəkli kəndində anadan olub. O, 1985-ci ildə Sədrəddin Rəhimov adına Köçəkli kənd tam orta məktəbin 1-ci sinfinə gedib və 1996-cı ildə həmin məktəbi uğurla bitirib. İntiqam 1996-cı ildə Masallı rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Müddətli hərbi xidmətini uğurla başa vurduqdan sonra 1999-cu ildə sənədlərini Müdafiə Nazirliyinin "Gizir hazırlığı" kursuna verib. 2000-ci ildə "gizir" rütbəsi alan İntiqam Naxçıvan Muxtar Respublikasındakı "N" saylı hərbi hissədə xidmətə başlayıb. Daha sonra xidmətini Silahlı Qüvvələrin Beyləqan və Füzuli rayonlarında yerləşən hərbi hissələrində davam etdirib. İntiqam xidmət illərində əldə etdiyi nailiyyətlərə görə, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Azərbaycan Ordusunun 95 illiyi (1918-2018)" yubiley medallarına layiq görülüb.

2020-ci il sentyabr ayının 27-də işğalçı düşmən Ermənistan ordusunun cəbhədəki hərbi təxribatı nəticəsində başlanan və 44 gün davam edən Vətən müharibəsində baş gizir Abbasov İntiqam da xidmət etdiyi hərbi hissənin tərkibində düşmənə qarşı hərbi əməliyyatlara qoşulub. Hərbçimizin döyüş yolu Füzuli rayonu istiqamətindən başlayıb. Qəhrəmanımız 3 gün dayanmadan tabeçiliyində olan "BTR" hərbi döyüş maşını ilə müharibənin ən qaynar nöqtəsində olmaqla bərabər, həm də düşmənə ağır zərbə vuraraq xeyli canlı qüvvəsi və zirehli texnikasını sıradan çıxarıb. Döyüşçü yoldaşlarının dediyinə görə, 2020-ci il sentyabr ayının 29-da ağır döyüşlərin birində baş gizir Abbasovun rəhbərlik etdiyi "BTR" hərbi döyüş maşını düşmənin atdığı ağır mərmiyə tuş gəlir, həmin vaxt maşındakı şəxsi heyət müxtəlif bədən xəsarətləri alsalar da, salamat çıxmağa nail olurlar. İntiqam bu partlayış nəticəsində bədəninin müxtəlif yerlərindən xəsarət almasına baxmayaraq, digər döyüşçü yoldaşlarının yanına gələrək yenidən döyüşə atılıb. Lakin qəhrəmanımız elə həmin gün bədəninin bir neçə nahiyəsindən aldığı ağır qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb. Şəhidimiz öz doğma kəndi Köçəklidə uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

İntiqam ailəli idi, bir qız, bir oğul övladı Vətənə əmanət qalıb.

Döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərərək adını tariximizə əbədi yazan baş gizir Abbasov İntiqam Yavər oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abbasov Möhlət Eldəniz oğlu



Xalqımızın şanlı tarixi qəhrəmanlıq səhifələri ilə zəngindir. Şərait qəhrəmanlar, qəhrəmanlar isə tarix yaradır. Tarixə çevrilmiş qəhrəmanlarımızdan biri də əsgər Abbasov Möhlət Eldəniz oğludur. O, 2001-ci il martın 19-da Daşkəsən rayonunda doğulub. Möhlət 2018-ci ildə Gəncə Şəhər 21 nömrəli tam orta məktəbin 11-ci sinfini bitirib. 2019-cu ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Möhlətin sürücülük keyfiyyətləri yüksək olduğu üçün xidmətinə sürücü kimi davam edib. O, top komandirinin sürücüsü olub.

Müharibə ərəfəsində Möhlət xidmətini Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə davam etdirirdi. O, 2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini pozub Azərbaycana qarşı hücum etməsi ilə başlayan Vətən müharibəsində öz öhdəsinə düşən vəzifələri vaxtında və dəqiq yerinə yetirməsi ilə seçilib. Qəhrəmanımız Füzuli və Xocavənd rayonlarının bir çox kəndinin, eləcə də Füzuli şəhərinin işğaldan azad olunmasında böyük şücaət göstərib. Möhlətin döyüş yoldaşları deyir ki, yaşının az olmasına baxmayaraq o, tək ailəsinə və yaxınlarına deyil, həm də əsgər yoldaşlarına ürək-dirək verərək ən çətin məqamlarda onların üzünü güldürüb. Qəhrəmanımız noyabrın 7-də idarə etdiyi maşınla Daşaltıdan Şuşaya qalxarkən düşmən onun maşınını vurub. Möhlət döyüşlərin 40-cı günü aldığı qəlpə yaralarında şəhid olub. Şəhidimiz Daşkəsən rayonunun Şəhidlər Xiyabanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Möhlət subay idi, onun bir qardaşı var.

İgidliyi ilə adını tariximizin şanlı səhifəsinə yazan əsgər Abbasov Möhlət Eldəniz oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasna görə" və "Xocavəndin azad olunmasna görə" medalları ilə təltif edilib.

## Abbasov Murtuz Çingiz oğlu



Şəhid Abbasov Murtuz Çingiz oğlu 1998-ci il noyabrın 2-də Lerik rayonunun Soru kəndində dünyaya gəlib. 2002-ci ildən ailəsi ilə birlikdə Bakıda yaşayan Murtuz 2005-ci ildə Bakı şəhər Binəqədi rayonu Sulutəpə qəsəbəsində yerləşən 217 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. O, təhsilini 2007-ci ildən 313 saylı məktəbdə davam etdirib. Murtuz 2016-cı ildə orta təhsilini başa vurduqdan sonra Dövlət Sərhəd Xidmətinin Akademiyasına daxil olub. 2020-ci ildə akademiyanı leytenant rütbəsində başa vuran qəhrəmanımız Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində tağım komandiri vəzifəsində xidmət etməyə başlayıb. Daha sonra isə raket-artilleriya silahlarının istismarı və təmiri mütəxəssisi ixtisası üzrə xidmətini davam etdirib.

Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirən hər bir qeyrətli Azərbaycan vətəndaşı kimi, Murtuzun da ən böyük arzusu məhz işğal altındakı torpaqlarımızın azadlığı və ölkəmizin ərazi bütövlüyünün bərpası idi. Elə buna görə də o, 2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini pozub Azərbaycana qarşı hücum etməsi və ordumuzun əks-hücuma keçməsi ilə başlayan Vətən müharibəsini sevinclə qarşılayıb. Murtuz müharibədə göstərdiyi şücaət və qəhrəmanlıqları ilə adını tarixə yazdırıb. O, cəbhənin Cəbrayıl istiqamətindən döyüşlərə başlayıb. Peşəkar hərbçi və sərhədçi olan qəhrəmanımız Xudafərin körpüsünün, eləcə də Arazboyu yaşayış məntəqələrimizin və Zəngilan şəhərinin düşmən tapdağından azad edilməsində xüsusi fədakarlığı ilə seçilib. Onlarla düşməni məhv edib.

Leytenant Murtuz Abbasov 22 oktyabr 2020-ci il tarixində Zəngilan rayonunun Ağbənd qəsəbəsi istiqamətində gedən ağır döyüşlərdə düşmənin snayper atəşinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidimiz şəhadətinin 7-ci günündə doğulub boya-başa çatdığı Lerik rayonunun Soru kəndinə uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Ailənin son beşiyi olan Murtuzun özündən böyük 4 qardaş, 4 bacısı var.

Cəsurluğu və qəhrəmanlığı ilə zəfər tariximizi yazan şəhidlərimizdən biri olan leytenant Abbasov Murtuz Çingiz oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Zəngilanın azad olunmasına görə" və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# DÜNYADA ƏBƏDİ OLAN ELM VƏ BİLİKDİR

Oxumaq insanın dünyagörüşünü formalaşdırır, dünyaya baxışını genişləndirir və dərinləşdirir, təfəkkürünü inkişaf etdirir, düşünmək və analiz etmək bacarığını artırır. Oxumaq həm də özünü və bütün kainatı kəşf etməkdir. Oxumaq zehni, fiziki və ruhi baxımdan inkişafa gətirib çıxarır. Həmçinin insanın özünə, ailəsinə, cəmiyyətə faydalı olması üçün, ilk növbədə, elmə ehtiyacı vardır. Ona görədir ki, İslam dini oxumağa, elm öyrənməyə böyük dəyər vermişdir. Həm dinimizin müqəddəs kitabı Qurani-Kərimdə, həm də Həzrət Peyğəmbərin (s) hədislərində elm öyrənməyin insan varlığındakı yüksək dəyəri bütünlüklə açıqlanmışdır. Qurani-Kərimdə buyurulur: **"...De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?!.."** (əz-Zümər, 9). *"Qadın və kişi hər müsəlmana elm öyrənmək fərzdir"* (İbn Macə, "Müqəddimə".) hədisi də bu həqiqəti təsdiqləyir.

Oxumaq insanın elmini və biliyini artırmaqla yanaşı, onun mədəni səviyyəsinin də yüksəlməsinə vəsilə olur. Başqa sözlə, oxumaq insana yaxşı-yamanı tanıdır, günah işlərdən uzaqlaşdırır, çirkinliklərdən təmizləyir, onda "ədəb yaradır".

Oxumaq insanda: etibarı formalaşdırıb, onu "vəfalı" edər.

Oxumaq insana: - ilahi qanunları öyrədib, onu "mərifətli" edər.

Oxumaq insanı: - fəzilətə qovuşdurub, "ədalətli" edər.

Oxumaq insanı: - xarakterçə ciddi, mənəviyyatca zəngin və ləyaqətli edər.

Oxumaq insanı: - bilik öyrənməyə "həris" edər.

Oxumaq insanı: - səbirli, tədbirli və imanlı edər.

Oxumaq insana yarandığı məqsədə xidməti dərk etdirər, ona yaradılış məqsədini göstərər. Oxumaqla insan Ülvi Varlıq qarşısında "kamillik məqamına" yüksələ bilər.

Məqsəd bəlirdir: İnsan yer üzünə elm, bilik qazanmaq üçün göndərilmişdir ki, bu yol ilə öz yaradanını axtarsın, tapsın və onunla ünsiyyət qursun!

Bu müqəddəs məqsədə Şeyx Nizaminin münasibətinə nəzər salaq:

*Nə şəhvət, nə yuxu, nə də ki, yemək*
*Həyatın mənası olmasın gərək...*
*Anlayıb, düşünək hər şeyi gərək,*
*Hər sirri açmaqla hünər göstərək.*
*Yerləri, göyləri öyrənək bir-bir,*
*Qalmasın bizimçin açılmamış sirr.*

Eyni məsələyə İmaməddin Nəsiminin münasibəti isə belədir:

*Sirri-ənəlhəq söylərəm aləmdə, pünhan gəlmişəm,*
*Həm həq derəm, həq məndədir, həm xətmi-insan gəlmişəm...*
*Gəlmiş cahana şərh edər şimdi Nəsimi həq sözün,*
*Ani kim idrak eyləsin, mən sirri-pünhan gəlmişəm?!*

Nəsimi deyir ki, yer üzünə ilahi sirrləri öyrənmək, bilmək üçün "xətmi insan" və "ismi pünhan" olaraq gəlibdir.

Deyirlər, Allah-Təala Quranda 99 adını bəyan edərək, birini yəni 100-cü adını Özündə gizli saxlayıb. Bu adı mürsəl peyğəmbərlər belə bilməzlər. Nəsimi özünə "ismi pünhan" deməklə Allah-Təalanın gizli sirrinin olmasından xəbər verir.

Belə bir rəvayət var ki, Allahın bu sonuncu adını hər kəs bilərsə, göylə yer arasında olan pərdə aradan qalxar və insanlar səma məxluqlarını aşkar görə bilərlər.

Məhəmməd Füzuli deyir:

*Rəva görmə canın çıxsın bədəndən kəsbi-ürfansız*
*Ki, ürfan kəsbinə canın bədən olmuş dəbistanı.*

Şair burada ruhun bədəni özünə məskən etmə səbəbinin elm və bilik əldə etmək üçün olduğunu söyləyir.

Elmsiz, biliksiz və maarifsiz yaşayan insan ömrünün əzab, əziyyət, işgəncə və cəhalətdə keçdiyini S.Ə.Şirvani bu sözlərlə ifadə edir:

Bu qədər dərd kim olur hadis,
Ona bielmlik olur bais.

İnsanı dünyada əbədi yaşadanın elm və bilik olması barədə isə Şeyx Nizami bunları söyləyib:

*Sən çalış yaxşıca öyrən dünyanı,*
*Bəşəri, bitkini, daşı, heyvanı.*
*Öyrən günlərini vermədən bada,*
*Qalacaq əbədi hər şey dünyada.*

Şair özünün elm-biliyə hərisliyini belə dilə gətirir:

*Göyün lövhəsində yanır rəqəmlər,*
*O saf ulduzları mən birər-birər*
*Nə qədər oxuyub öyrəndim, heyhat,*
*Yenə də qəlbimi görmədim rahat.*

Nizami kamalın insanı ucaltdığını və insana kamalına görə ehtiram göstərildiyini söyləyir. Onu insana arxa hesab edərək yazır:

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat.*
*İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı.*



İbn Sina "Bilik" kitabında insan kamalının qüdrətinin intəhasız olduğunu, hər şeyi qavraya bilməyini açıqlayır.

Yuxarıda adları çəkilən dahi şəxsiyyətlər oxumaqla əbədi ölməzlik qazanmışlar. Bax, budur, oxumağın nəticəsi.

**Zabit QARAYEV**

# DİNİ TƏŞKİLATLAR ÜÇÜN 1 MİLYON FUNT STERLİNQƏ MALİK FOND TƏSİS EDİLİB



İngiltərə hökuməti karantin dövründə ehtiyacı olan vətəndaşlara kömək etməkdə müvəffəqiyyətli olduqlarını təsdiqləyən dini təşkilatlar üçün 1 milyon funt sterlinqlik yeni fond təsis edib. Bu barədə "christiantoday" xəbər verib.

Bu "yeni sözləşmə" hökumətin pandemiyadan sonra cəmiyyətin və iqtisadiyyatın "bərpasını sürətləndirmək" proqramının bir hissəsidir. Fondun yaradıldığını elan edərkən Mənzil, İcmalar və Yerli İdarəetmə Departamentinin rəsmiləri dini təşkilatların ehtiyacı olanlara xeyriyyə yardımı göstərməkdə ən yüksək səmərəliliyi nümayiş etdirdiklərini vurğulayıblar.

"Dini qruplar pandemiya dövründə yerli icmalara dəstək göstərilməsində mühüm rol oynadılar. Onlar "ön cəbhədəki" könüllülərə və ehtiyacı olan vətəndaşlara yemək çatdırılmasından tutmuş özünü təcrid edən tənha adamlara mənəvi dəstək göstərilməsinə, xəstələrə, onların qohumlarına və yaxınlarına vaxtında lazımi məlumat verilməsinə qədər hər şeylə məşğul idilər. Yeni fonddan maliyyələşəcək layihələr onların qoyduqları möhkəm təməl üzərində qurulacaq, bununla da dövlət xidmətləri ilə dini təşkilatlar arasında uzun müddətdir davam edən qarşılıqlı əlaqəni gücləndirəcək və mənəvi təşkilatların kəskin sosial problemlərin həlli və cəmiyyətin koronavirusdan sağalması yönündəki təşəbbüslərinin sürətlənməsinə kömək edəcək", - deyə nazirlikdən bildirilib.

Dini təşkilatlar yerli icmalardakı səmərəli xeyriyyəçilik fəaliyyətlərini maliyyələşdirmək və genişləndirmək üçün bu pilot fonda müraciət edə biləcəklər. Fondun layihələri arasında qida çatışmazlığı, cəmiyyətin psixi sağlamlığının zəifləməsi, depresiyanın, tənha və borclu insanların sayının artması kimi problemlərin həllinə yönəlmiş, o cümlədən işsiz insanların işlərini bərpa etmələri və nikbinliyə köklənmələrinə kömək məqsədi daşıyan məşğulluq təşəbbüsləri var.

# DONALD TRAMP İNANC ÜZRƏ YENİ MİLLİ MƏSLƏHƏTŞURASI TƏSİS EDİB



"Christianpost" xəbər verir ki, keçmiş prezident Donald Tramp özünün "ruhani müşaviri" və televiziya vaizi Paula Uaytın rəhbərliyi ilə ABŞ-da dini vəziyyətin pisləşməsinə qarşı İnanc üzrə Milli Məsləhət Şurası təsis edib.

Amerikadakı dini təşkilatların və inancın hazırkı "depressiv" vəziyyətindən təəssüfləndiyini bildirən keçmiş prezident populyar vaiz Paula Uaytın rəhbərlik etdiyi bu yeni qurumun fədakar işinə ümid bəslədiyini qeyd edib.

Dini liderlərlə telekonfrans zamanı Tramp özünəməxsus yığcam və qısa üslubla ilə "Son vaxtlar bir çox pis şeylər baş verdi, çox şey inanc və dinin təməlini sarsıtdı, bunların hamısı ruh düşkünlüyünə səbəb olur", - deyə söyləyib.

Telekonfrans Tramp administrasiyasının ictimaiyyətlə əlaqələr xidmətinin keçmiş əməkdaşları Cenni Korn və Amanda Robbins Vargo tərəfindən qurulan dini qrup tərəfindən təşkil olunub. Qrup dini icmalara Bayden rəhbərliyini "din əleyhinə siyasət" aparmaqda günahlandıran elektron dəvətnamə göndərib. Bu barədə "Jewish Daily Forward" nəşri yazıb.

Məktubda "Tramp dövründə Ağ Evdə birlikdə çox şey əldə edə bildik. İndi isə görürük ki, zəhmətimizin bütün bəhrələri sistematik olaraq yeni rəhbərliyin səyləri, din əleyhinə siyasəti ilə məhv edilir. Tanrıya ibadət etmək və inancımıza uyğun yaşamaq haqqımızı, ölkə daxilində və xaricində dini azadlıqlarımızı müdafiə etmək əzmindəyik" – yazan təşkilatçılar gələcəkdə görkəmli din xadimləri ilə mütəmadi olaraq telekonfranslar və tədbirlər keçirmək niyyətində olduqlarını açıqlayıblar.

# "DANCİRİ" FESTİVALININ ƏSAS AYİNİ YENİDƏN KEÇİRİLİB

Yaponiyanın qərbində yerləşən Osaka prefekturasının Kişivada şəhərində qədim ənənəvi "Danciri" festivalının əsas ayini yenidən küçələrə qayıdıb.

Koronavirus pandemiyasına görə təxirə salınan festival bir illik fasilədən sonra ilk dəfə təşkil edilib. Bildirilir ki, "Danciri" festivalı Kişivada şəhərində 300 il əvvəl, Edo dövründə keçirilməyə başlanıb.

Festival zamanı yerli sakinlər bol məhsul toplamaq üçün dualar edirlər. Bayramın "Yarimavaşi" adlanan əsas adətlərindən biri təqribən hərəsi 4 ton ağırlığında olan arabaların – "Danciri-quruma"ların şəhər küçələri boyunca gəzdirilməsidir.



# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini sentyabr ayı ərzində də davam etdirmişdir. Maarifləndirmə tədbirləri pandemiya ilə əlaqədar Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən əsasən videokonfrans formatında, bəzi bölgələrdə isə zəruri qaydalara əməl olunmaqla ənənəvi qaydada təşkil olunmuşdur.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**1 sentyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF), Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba və Şabran bölgələri üzrə qazılıqlarının birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda;

**3 sentyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonunda "Narkomanlığa qarşı mübarizədə dini və milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

**7 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh Aylığı" çərçivəsində Balakən rayonunda "Mənəvi dəyərlərimiz: sülh və humanizmə baxış" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Suraxanı Rayon İcra Hakimiyyəti (RİH), MDTF-nin birgə təşkilatçılığı ilə "Milli birliyin möhkəmləndirilməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində Qəbələ rayonunda "Mənəvi dəyərlərimiz: sülh və humanizmə baxış" mövzusunda;

**8 sentyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in birgə təşkilatçılığı ilə "Gənclər arasında vətənpərvərlik, dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Mənəvi dəyərlərimiz: sülh və humanizmə baxış" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Ağsu rayonu Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**9 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda;

**10 sentyabr** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin, Hacıqabul rayon Gənclər və İdman İdarəsinin, rayon Mədəniyyət evinin və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Şəhidlər: milli – mənəvi dəyər kimi" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Biləsuvar rayonunda fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə "Məhərrəm ayında dini mərasimlərin idarə edilməsi" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Qobustan rayon Təhsil şöbəsi və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol: milli və dini həmrəyik" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "İslam dini və dini mərasimlər" mövzusunda;

**14 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin və Bərdə rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı, YAP Yevlax rayon təşkilatının iştirakı ilə Bərdə rayonunda "Sülh aylığı" çərçivəsində "Azərbaycan xalqının tolerantlıq ənənəsi sülhün və birgəyaşayışın mühüm şərtidir" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Masallı rayonunda "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda;

**15 sentyabr** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Binəqədi RİH, Binəqədi rayon Gənclər və İdman İdarəsi, "Binəqədi Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmə qarşı mübarizə, vətənpərvərlik tərbiyəsinin təbliği" mövzusunda;

**16 sentyabr** – Zaqatala rayonunda "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQDİK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə DQİDK-nın sifarişi ilə nəşr olunan kitabların təqdimatına həsr olunmuş tədbir; DQDİK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonunda din xadimlərinin iştirakı ilə "Milli həmrəyliyin qorunmasında İslam dininin rolu" mövzusunda; DQDİK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonunda "Azərbaycan xalqının tolerantlıq ənənəsi sülhün və birgəyaşayışın mühüm şərtidir" mövzusunda;

**20 sentyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Azərbaycan regionda sülhün təminatçısıdır" mövzusunda;

**21 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonunda "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı çərçivəsində "Dini ekstremizm və ayrı-seçkilik çağırışlarına qarşı gənclərin səfərbər edilməsi, onlar arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğ edilməsi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH, Kürdəmir rayon Heydər Əliyev Mərkəzi, rayonun Gənclər və İdman İdarəsi və QMİ-nin səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Sülh və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdamda "Sülh aylığı" çərçivəsində "Dünyamızı sülhlə qoruyaq" mövzusunda;

**22 sentyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Ağsu rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqlarının qorunmasında hüquqi və mənəvi öhdəliklərimiz" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay rayon Qaraman kənd "Hacı Rəhim" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərdən uzaq gənclik" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabul rayonunda "Vətən müharibəsindəki qələbəmizdə milli – mənəvi dəyərlərin rolu" mövzusunda;

**23 sentyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı rayon Gənclər və İdman İdarəsi və rayon Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə "Narkomaniya-ümumbəşəri bəla" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Biləsuvar rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "Mənəvi dəyərlərimiz: Sülh və humanizmə baxış" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Vətənpərvərlik nümunəsi: qazilik və şəhidlik" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**24 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə 27 Sentyabr - Anım Günü ilə bağlı "Vətən Şəhidləri, Siz həmişə bizimləsiz!" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə 27 Sentyabr – Anım Günü ilə bağlı din xadimlərinin və Vətən müharibəsi qazilarinin iştirakı ilə; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, şəhər Təhsil şöbəsi və şəhər Rasim Məmmədov adına 5 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və rayon MKS-in birgə təşkilatçılığı ilə 27 Sentyabr - Anım Günü ilə bağlı "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh Aylığı" çərçivəsində "Azərbaycan xalqının tolerantlıq ənənələri" mövzusunda;

**27 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol – milli və dini həmrəylik" mövzusunda;

**28 sentyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlıda Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olumuş; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə dini radikalizm mövzusunda;

**29 sentyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və YAP Yevlax rayon təşkilatının birgə təşkilatçılığı, Yevlax şəhər Heydər Əliyev mərkəzinin, Yevlax şəhər Gənclər və İdman İdarəsinin, Yevlax şəhər Gənclər Evi sosial xidmət müəssisəsinin iştirakı ilə "Qəhrəmanlar can verər yurdu yaşatmaq üçün" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən videokonfranslar zamanı milli qurtuluşdan başlanan yolda əldə edilən uğurlar haqqında ətraflı fikir mübadiləsi aparılıb. Ümummilli Liderin müstəqil Azərbaycan dövlətinin tarixində qoyduğu silinməz izlərdən geniş söhbət açan natiqlər bildiriblər ki, Azərbaycan adlı müstəqil dövlət bizə və bütün gələcək nəsillərə Ulu Öndərin ən böyük tarixi əmanətidir və biz bu əmanəti hər zaman qorumalıyıq.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd ediblər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar.

Tədbirlərdə insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququna diqqət çəkilib. Çıxışlar zamanı insan hüquq və azadlıqları, bu sahədə qəbul edilmiş qanunlar, qərarlar və digər normativ aktlar haqqında məlumat verilərək, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən layihələr tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirlərdə, həmçinin cəmiyyətimizdə erkən nikahların yaratdığı mənəvi, sosial və hüquqi zərərlər haqqında danışılıb. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin daha intensiv aparılmasının vacibliyi, din xadimlərinin məsələyə həssas yanaşmalı olduğu və onların üzərinə müəyyən vəzifələrin düşdüyü nəzərə çatdırılıb.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan videokonfranslar qarşılıqlı diskussiya şəklində baş tutub.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR
*(Dini qurumların dövlət reyestri)*
# MƏLUMATLARI

**"Yardımlı rayonu Arvana kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 11 mart 2021-ci il
Qeydiyyat №-si: 100121D-947

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Miriyev Sərvər Ramazan oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Miriyev Ənvər Ramazan oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Miriyev Sərvər Ramazan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Miriyev Ənvər Ramazan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 31 avqust 2021-ci il

**"Ağcabədi rayonu Salmanbəyli kəndi "Heydər" məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A-661

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Möhsümov Nahid Barat oğlu, Xudiyev Rəşid Əjdər oğlu, İbrahimov Rafiz Ramiz oğlu, Qasımov Süleyman Teymur oğlu, Həsənov Həsən Əli oğlu, Məmmədov Cəlil Hüseyn oğlu, Məmmədov Əhməd Bayram oğlu, Babayev Nuru Əli oğlu, Abbasov Yaqub Aslan oğlu, Əsgərov Məzahir Şükür oğlu, Zeynalov Saməddin Akif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədli Ülfət Cəlil oğlu, Abbasov Kamil Rza oğlu, İsmayılov İlqar Baloğlan oğlu, Quliyev Nail Dadaş oğlu, Həsənov Əhməd Bəhmən oğlu, Həsənov Ehtiram Məhəmməd oğlu, Nəbiyev Musa Hüseyn oğlu, Bədəlov Nurəddin Cəmil oğlu, Hüseynov Arif Yaqub oğlu, Bünyatlı Valeh İsa oğlu, Əsgərov Sənan Məzahir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 sentyabr 2021-ci il

**"Masallı rayonu Ərkivan qəsəbəsi "Hacı Şeyx Əli" məscidi" dini icması**

Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3-113

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əsgərov Yusif Hüseyn oğlu, Əzimov Əzim İsaq oğlu, Mənsimov Həbib Həbib oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mənsimov Həmid Həbib oğlu, Əzimov Şavərən Bağır oğlu, Cəbiyev Aydın Cəfər oğlu, Abdullayev Rasif Saleh oğlu, Calalov Rövşən Balasər oğlu, Niftullayev Ağabəy Balabəy oğlu, Ağaəliyev Xanəli Ağəli oğlu, Əmrahov Əmrah Qulamhüseyn oğlu, Həmidov Elçin Şamil oğlu, Əsgərov Elnur Sənhan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Əsgərov Yusif Hüseyn oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Mənsimov Həmid Həbib oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 sentyabr 2021-ci il

**"Ucar rayonu Çiyni kəndi "Hacı Ağamirzə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 16 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2-297

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Səfixan Hüseyn oğlu, Əhmədov Əlisa Alməmməd oğlu, Salmanov Məhəmməd Ağasəf oğlu, Seyidov Yaşar Qədir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Hüseynov Kənan Səfixan oğlu, Həsənov Vahib Ədlişah oğlu, Əhmədov Sadiq Baxşəli oğlu, Seyidov Mirəli Yaşar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 sentyabr 2021-ci il

**"İmişli rayonu Nurulu kəndi "İmam Rza" məscidi" dini icması**

Qeydiyyat tarixi: 08 may 2019-cu il
Qeydiyyat №-si: 100119A-916

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Nizam Bayram oğlu, Məmmədov Bayraməli Cəmil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədov Samiq Bayraməli oğlu, İsmayılov Cəbi Astan oğlu, Mustafayev Kamal Əliağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Məmmədov Nizam Bayram oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədov İsmayıl Nizam oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 sentyabr 2021-ci il

**"Hacıqabul rayonu Talış kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2-72

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Mirsaleh Mirabbas oğlu, Məmmədov Məmməd Mirabbas oğlu, Cumayev Emin Ağaismayıl oğlu, Nuriyev Əzizağa Əlman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədov Rəşad Mirismayıl oğlu, Nəzərli Amin Saleh oğlu, Əhmədov Zamir Mahaloviç, Eynalov Güləsən Cahangir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 15 sentyabr 2021-ci il

# QAZAXISTANDA DÜNYA VƏ ƏNƏNƏVİ DİNLƏR QURULTAYININ KATİBLİYİNİN İCLASI KEÇİRİLƏCƏK



Dünya və Ənənəvi Dinlərin Liderləri Qurultayının Katibliyinin XIX iclası bu il oktyabrın 5-6-da Qazaxıstanda keçiriləcək. Koronavirus pandemiyası ilə bağlı vəziyyət nəzərə alınaraq, bu il tədbirin hibrid formatda keçirilməsi nəzərdə tutulub.

İclasın əsas müzakirə mövzularından biri konqresin sonrakı dövrdə dünyanın inkişafındakı roludur. Bundan başqa, qurultay katibliyinin iclasında dünya dini liderlərinin qurultayının dəqiq tarixləri müəyyənləşəcək.

Qeyd edək ki, Qazaxıstan hökuməti Dünya və Ənənəvi Dini Liderlərin bu ilin iyununda keçirilməsi planlaşdırılan qurultayını 2022-ci ildə təşkil etmək niyyətindədir. Bu, koronavirusun yayılması səbəbindən respublikadakı epidemioloji vəziyyətlə bağlıdır.

Eyni zamanda, koronavirus pandemiyası səbəbindən dinlərarası forum tarixində ilk dəfə təxirə salınıb.

Xatırladaq ki, Nursultan Nazarbayevin təşəbbüsü ilə ilk dəfə 2003-cü ildə Qazaxıstanın paytaxtında keçirilən Dünya və Ənənəvi Din Liderlərinin Konqresi sülh və firavanlığın ümumi dəyərləri naminə müxtəlif konfessiyaların səylərini birləşdirir.

# TALİBLƏR ŞƏRİƏTƏ ZİDD FƏNLƏRİ ALİ MƏKTƏB PROQRAMLARINDAN ÇIXARACAQLAR



Əfqanıstanda bundan sonra şəriət qanunları fəaliyyət göstərəcək.

Bunu "Taliban" hərəkatının lideri Heybətulla Axundzadə bildirib. Onun sözlərinə görə, gələcəkdə Əfqanıstanda bütün idarəçilik və həyat tərzi müqəddəs İslam qanunları ilə tənzimlənəcək.

"Biz öz qonşularımızla və digər ölkələrlə hörmətə və qarşılıqlı fəaliyyətə əsaslanan möhkəm, sağlam münasibətlər qurmaq istəyirik. Bu ölkələrlə bizim münasibətlərimiz Əfqanıstanın maraqlarına və mənfəətinə əsaslanacaq. Biz İslam qanunlarına və milli dəyərlərə zidd olmayan bütün beynəlxalq qanunlara, sazişlərə, qətnamə və öhdəliklərə sadiqik", - deyə Axundzadənin bəyanatında bildirilir.

O həmçinin qeyd edib ki, "İslam əmirliyi" müqəddəs İslam dininin tələbləri çərçivəsində insanların və milli azlıqların hüquqlarının müdafiəsi üzrə ciddi və effektiv addımlar atacaq.

"Tolo News" telekanalının yaydığı məlumatda isə "Taliban" hərəkatının şəriət qanunlarına zidd fənləri Əfqanıstan universitetlərinin proqramlarından çıxaracağı deyilir.

Bunu Əfqanıstan ali təhsil nazirinin səlahiyyətlərinin icraçısı Abdula Hakkani bildirib.

Yerli KİV-in məlumatına görə, universitet tələbələrini proqramlarda dəyişiklik gözləyir. Əfqanların digər ölkələrdən olan tələbələrlə rəqabət apara bilməsi üçün ikinci dərəcəli fənlər müasirləri ilə əvəzlənəcək. Hansı fənlərdən söhbət getdiyi hələlik dəqiqləşməyib.

Təhsil Nazirliyi, həmçinin gələcəkdə əfqan tələbələrin xaricdə təhsil alması üçün xüsusi proqram hazırlanacağını vəd edib.

Bundan başqa, şəriətə zidd maddələr istisna olmaqla, taliblər Əfqanıstanın sonuncu şahı Zahir-Şahın dövründəki konstitusiyadan istifadə edəcəklərini bildiriblər.

CƏMİYYƏT və DİN
№ 09 (359) SENTYABR 2021-ci il

# SƏYYAD ARANIN YENİ KİTABI ÇAPDAN ÇIXIB




Yazıçı-publisist Səyyad Aranın "İrəvana gedən yollar" adlı romanı nəşr olunub. Müasir tariximizin şanlı səhifələrindən olan 2016-cı ilin Aprel döyüşlərinə həsr olunmuş romanın oxucuya çatdırmaq istədiyi əsas məzmun 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığımız Qələbənin təməlinin illər əvvəldən atıldığını göstərməkdir. Aprel zəfərinin iştirakçıları ilə söhbətlərdən ilhamlanaraq sözügedən döyüşləri ədəbi ustalıqla təqdim edən müəllif qəhrəmanlarının dili ilə 100 ildən çoxdur erməni qəsbkarlarının Moskvadakı himayədarlarının dəstəyi ilə xalqımıza qarşı törətdiyi cinayətləri, əzəli Azərbaycan torpaqları hesabına apardığı eskalasiyanı tarixi faktlar əsasında ortaya qoyur. Xalqımızın bu işğallarla heç vaxt barışmadığının, bir gün tarixi ədaləti bərpa etmək üçün uyğun şəraiti gözlədiyinin, Ali Baş komandan İlham Əliyevin yürütdüyü məqsədyönlü daxili və xarici siyasət sayəsində o günün uzaqda olmadığının dəfələrlə vurğulandığı kitabda çoxillik Qarabağ davamızın geniş mənzərəsi göz önündə canlanır, bu yolda görülən işlərlə bağlı göstərilən faktların zənginliyi qarşıya qoyulan məqsədə müvəffəqiyyətlə nail olacağımızı sübut edir.

Vətən, xalq və azadlıq uğrunda vuruşanlara, mübarizə aparanlara və bu yolda şəhidlik zirvəsi fəth edənlərə həsr olunmuş əsər geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

# DÜNYANIN ƏN YAXŞI UNİVERSİTETLƏRİNİN SİYAHISI AÇIQLANIB



Britaniyada nəşr olunan "Times Higher Education" jurnalı "Dünyanın ən yaxşı universitetləri" siyahısını açıqlayıb.

Reytinq siyahısı ümumilikdə 93 ölkədən 1500-dən çox universiteti əhatə edib.

ABŞ və Britaniya universitetləri ilk sıralarda yer alıb. Oksford Universiteti 6 ildir dünyanın ən yaxşı universiteti olaraq yerini qoruyur. Onun ardınca siyahıda ABŞ-ın Kaliforniya Texnologiya İnstitutu və Harvard Universiteti gəlir. Stanford Universiteti dördüncü, Massaçusets Texnologiya İnstitutu isə beşinci sıradadır.

Türkiyənin Koç və Sabancı universitetləri isə ilk 600-lükdə yer alıb.

Jurnal bu sıralamanı tərtib edərkən təhsil müəssisələrinin elmi araşdırmaları, beynəlxalq iş və mövqeləri, gəlirlərinin artması və keçən il siyahıda sıralanması kimi 13 faktoru nəzərə alır.

# ÇAY ÜZƏRİNDƏ QEYRİ-ADİ KÖRPÜ



Avstriyada Murinsel Adası körpüsü "Avropa Mədəniyyət Paytaxtı" adı uğrunda yarışma çərçivəsində yaradılıb. Bu orijinal şüşə-qurğu amerikalı arxitektor və rəssam Vito Akkonçinin layihəsi əsasında hazırlanıb.

Mur çayının sahillərini birləşdirən Murinsel ada körpüsü nəhəng iki qaba bənzəyir. Birinci qabın içərisində kafe-bar, açıq sahədə isə amfiteatr və uşaq meydançası yerləşir.

Şüşə qab istənilən vaxt çox orijinal görünür, lakin gecələr çox rəngli işıqlandırma sayəsində bu qeyri-adi körpü Avropa şəhərinin ən bənzərsiz bəzəyinə çevrilir. Sahəsi 1000 kvadratmetr olan konstruksiya çayın dibinə lövbərlər vasitəsilə bərkidilib.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Oktyabr - 2021)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:16 | 06:36 | 12:30 | 16:38 | 18:38 | 19:38 |
| 2 | 05:17 | 06:37 | 12:30 | 16:37 | 18:36 | 19:37 |
| 3 | 05:18 | 06:38 | 12:29 | 16:35 | 18:34 | 19:35 |
| 4 | 05:19 | 06:39 | 12:29 | 16:34 | 18:33 | 19:33 |
| 5 | 05:20 | 06:40 | 12:29 | 16:32 | 18:31 | 19:32 |
| 6 | 05:21 | 06:41 | 12:29 | 16:31 | 18:30 | 19:30 |
| 7 | 05:22 | 06:42 | 12:28 | 16:30 | 18:28 | 19:28 |
| 8 | 05:23 | 06:43 | 12:28 | 16:28 | 18:26 | 19:27 |
| 9 | 05:25 | 06:44 | 12:28 | 16:27 | 18:25 | 19:25 |
| 10 | 05:26 | 06:45 | 12:27 | 16:25 | 18:23 | 19:24 |
| 11 | 05:27 | 06:47 | 12:27 | 16:24 | 18:22 | 19:22 |
| 12 | 05:28 | 06:48 | 12:27 | 16:23 | 18:20 | 19:21 |
| 13 | 05:29 | 06:49 | 12:27 | 16:21 | 18:19 | 19:19 |
| 14 | 05:30 | 06:50 | 12:26 | 16:20 | 18:17 | 19:18 |
| 15 | 05:31 | 06:51 | 12:26 | 16:18 | 18:16 | 19:16 |
| 16 | 05:32 | 06:52 | 12:26 | 16:17 | 18:14 | 19:15 |
| 17 | 05:33 | 06:53 | 12:26 | 16:16 | 18:13 | 19:13 |
| 18 | 05:34 | 06:54 | 12:26 | 16:14 | 18:11 | 19:12 |
| 19 | 05:35 | 06:55 | 12:25 | 16:13 | 18:10 | 19:10 |
| 20 | 05:36 | 06:56 | 12:25 | 16:12 | 18:08 | 19:09 |
| 21 | 05:37 | 06:57 | 12:25 | 16:10 | 18:07 | 19:08 |
| 22 | 05:38 | 06:58 | 12:25 | 16:09 | 18:06 | 19:06 |
| 23 | 05:39 | 06:59 | 12:25 | 16:08 | 18:04 | 19:05 |
| 24 | 05:40 | 07:01 | 12:25 | 16:06 | 18:03 | 19:04 |
| 25 | 05:41 | 07:02 | 12:24 | 16:05 | 18:02 | 19:03 |
| 26 | 05:42 | 07:03 | 12:24 | 16:04 | 18:00 | 19:01 |
| 27 | 05:43 | 07:04 | 12:24 | 16:03 | 17:59 | 19:00 |
| 28 | 05:44 | 07:05 | 12:24 | 16:01 | 17:58 | 18:59 |
| 29 | 05:45 | 07:06 | 12:24 | 16:00 | 17:56 | 18:58 |
| 30 | 05:46 | 07:07 | 12:24 | 15:59 | 17:55 | 18:57 |
| 31 | 05:47 | 07:08 | 12:24 | 15:58 | 17:54 | 18:55 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# 7 MİN İL ƏVVƏLƏ AİD QAYAÜSTÜ DƏVƏ HEYKƏLLƏRİ TAPILIB



Səudiyyə Ərəbistanında təqribən 7 min il əvvələ aid olduğu bildirilən qayaüstü dəvə heykəlləri tapılıb. Bu tapıntı 3 il öncə İordaniyada aşkar edilən 21 relyefdən daha qədimdir.

Səudiyyə Ərəbistanı və Avropanın arxeologiya institutlarının x-ray texnologiyasının köməyi ilə apardıqları tədqiqat yeni tapıntının 7 min il tarixi olduğunu müəyyən edib. Səhrada yerləşən və "Dəvə şəhəri" adlanan ərazidəki qayaların üzərində dəvənin təbii ölçüsündə qazılan böyük heykəllər ən qədim qayaüstü abidələrdən biri hesab olunur. Arxeoloqlar hesab edirlər ki, 7-8 min il əvvəl bu səhra yaşıl vadi olub. Bəşəriyyət Tarixi üzrə Maks Plank İnstitutunun rəyinə görə, dəvə burada yaşayan insanların həyatının ən mühüm parçası kimi, qayaüstü rəsmlər və heykəllərdə də təsvir edilib.

Səudiyyə Ərəbistanının Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə aparılan tədqiqatın nəticələri arxeologiya elmi jurnalında ("Journal of Archaeological Science") dərc olunub.

## Yadigar söz

**Şah İsmayıl Xətai**

*Müdrik əcdadlarımızdan miras qalmış üç şeyi sizə vəsiyyət edirəm: Ana dilimizi, vicdanımızı və Vətənimizi.*

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poliqraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi: 2894